QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 242 (5962) **28 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Şahdağ" Turizm Mərkəzi dünya səviyyəli xizək kurortuna çevrilib

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar*

Səh 2




3

Heydər Əliyev Fondu aztəminatlı ailələrə bayram sovqatları çatdırıb



5

Əli Əhmədov: "Maraqlı və gərgin seçki kampaniyası aparacağımıza əminəm"



8

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

28 dekabr 2019-cu il

# "Şahdağ" Turizm Mərkəzi dünya səviyyəli xizək kurortuna çevrilib

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar*











Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar. AZƏRTAC xəbər verir ki, "Şahdağ" Turizm Mərkəzinə gələn dövlətimizin başçısı burada xizək sürdü.

Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən "Şahdağ" Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Turizm Mərkəzi oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.

Son illərdə burada xeyli iş görülüb. Dövlətimizin başçısı ən hündür nöqtədə tikilən "Shahdag 2351" kafesinin qarşısında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, burada baxış meydançası yaradılıb, ərazidə ehtiyat helikopter meydançası inşa edilib, hündürlüyü 30 metr olan bayraq dirəyi quraşdırılıb.

Prezident İlham Əliyev yerli və xarici turistlərlə söhbət etdi. Turistlər "Şahdağ" Turizm Mərkəzində yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Qeyd edək ki, "Welcome Shahdag" ərazisinin giriş hissəsi abadlaşdırılıb, burada yaşıllıq zolağı salınıb. "Welcome Shahdag" turistlərin mərkəzdə qarşılaşacaqları ilk nöqtədir. Bu ərazidə 363 yerlik yeni avtomobil dayanacağı inşa edilib. Qonaqların qarşılanması, məlumatlandırılması və istiqamətləndirilməsi üçün "Welcome Plaza" binası da tikilib. Turist avtomobillərinin rahatlığı üçün isə uzunluğu 1 kilometrə yaxın olan yeni alternativ Zirvə yolu inşa edilib.

Baş Nazirin birinci müavini Yaqub Eyyubov və "Şahdağ" Turizm Mərkəzi QSC-nin sədri Rodderix Leffler bildirdilər ki, 2018-ci ilin martından bu ilin dekabrına qədərki dövrü əhatə edən ikinci faza çərçivəsində "Şahdağ" Turizm Kompleksində ümumi uzunluğu 7,9 kilometr olan 7 eniş zolağı inşa edilib. Bu eniş zolaqlarında 81 yeni qaryaratma avadanlığı quraşdırılıb və qaryaratma üçün lazım olan kommunikasiya xətləri inşa edilib. Şahdağ ərazisində quraşdırılan müasir qaryaratma avadanlıqları ən çox qaryaratma gücünə malikdir. Hazırda kompleksdəki eniş zolaqlarının ümumi uzunluğu 22,8 kilometrə çatır və burada yeni quraşdırılan kanat yolları 1,4 kilometr uzunluğundadır. 5 saylı kanat yolunun yuxarı operator məntəqəsi dəniz səviyyəsindən 2351 metr hündürlükdə inşa edilib. Bu, 1 saylı kanat yolunun yuxarı stansiyasından 250 metr daha hündürdə yerləşir. 600 metrlik 20 saylı kanat yolu "Welcome Shahdag" ərazisi ilə Zirvə lift bazasını, 5 saylı kanat yolu isə 1 saylı kanat yolunun davamı olaraq MTG zonasını 5 saylı eniş zolağının başlanğıcı və ya "Shahdag 2351" kafesi ilə birləşdirir. O da qeyd olundu ki, təbii göl və onun ətrafında tikinti quraşdırma işləri də tamamlanıb. Ərazinin abadlaşdırılması işləri indi də davam edir və 2020-ci ilin yaz aylarında göl ətrafında yeni park zonası istifadəyə veriləcək.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, "Şahdağ" Turizm Mərkəzinin "Main Plaza" adlanan ərazisində 2 zalı olan yeni kinoteatr inşa edilib. Zalların biri 36, digəri 72 yerlikdir. Buraya gələn yerli və xarici turistlərin xizək sürdükdən sonrakı asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında kinoteatr mühüm rol oynayacaq. Kinoteatrın Yeni il bayramında turistlərin istifadəsinə verilməsi planlaşdırılır. Bundan əlavə, dördxətli boulinq, uşaq boulinqi, bilyard və avtomat oyunlardan ibarət oyun zalı yaradılıb, "Music Hall" inşa edilib.

"Şahdağ" Turizm Mərkəzində görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı dedi ki, bura indi dünya səviyyəli xizək kurortudur. Burada həm peşəkarlar, həm də yeni başlayanlar üçün çox rahat enişlər var. Gələcəkdə kompleksin genişləndirilməsi ilə bağlı əlavə planlar olacaq.

Prezident İlham Əliyev "Şahdağ" Turizm Mərkəzinin üçüncü mərhələsi üzrə layihə işləri ilə bağlı tapşırıqlarını verdi.

Dövlətimizin başçısı və xanımı turistlərlə, kompleksin işçiləri ilə xatirə şəkilləri çəkdirdilər.

Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" Turizm Mərkəzində inşa edilən otellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu otellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına diqqətin göstəricisidir. Bu çərçivədə "Şahdağ" Turizm Mərkəzində inşa edilən otellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir. Ölkəmizdə qeyri-neft sektoruna mühüm töhfə olan "Şahdağ" Turizm Kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə əraziyə gələrək tikintinin gedişi ilə tanış olub, bir neçə obyektin və otelin açılışında iştirak ediblər.

# Seçenov Universitetinin Bakı filialında poeziya gecəsi keçirilib









***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə poeziya gecəsi keçirilib.***

AZƏRTAC xəbər verir ki, Bakı filialının rektoru, professor Əziz Əliyev tədbirdə çıxış edərək tələbələrin poeziyaya marağının artırılmasına dəyərli töhfəsinə görə Leyla Əliyevaya təşəkkürünü bildirib. Leyla Əliyeva çıxışında ən çətin və humanist peşələrdən biri olan həkim peşəsinin əhəmiyyətini vurğulayıb. Sonra Seçenov Universitetinin Bakı filialının tələbələri Lalə İsayeva, Nuranə Ələkbərova, Vüsalə Hüseynova Leyla Əliyevanın "Dünyanın ən gözəl insanı, haradasan?", "İnanmırıq" və "Zaman, xahiş edirəm, dayan" şeirlərini oxuyublar. Gələcəyin həkimləri - Tamerlan Rüstəmov, Lalə İsayeva və Yaqub Kərimov da öz şeirlərini oxuyublar. Leyla Əliyeva gecənin sonunda tələbələrə öz kitablarını hədiyyə edib, tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirib.

# Heydər Əliyev Fondu aztəminatlı ailələrə bayram sovqatları çatdırıb



***Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə respublika üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrə bayram sovqatları paylanılıb. AZƏRTAC xəbər verir ki, dekabrın 21-dən etibarən Fondun əməkdaşları və "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri aztəminatlı ailələrə bayram sovqatları çatdırıblar. Müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatları Bakıda və regionlarda ünvanlı dövlət sosial yardımı alan ailələrə təqdim olunub.***

Qeyd edək ki, Heydər Əliyev Fondu müxtəlif bayramlarda mütəmadi olaraq aztəminatlı ailələri təbrik edərək, onlara sovqatlar çatdırır. Həyata keçirilən bu cür layihələr sosial-iqtisadi dövlət proqramlarına dəstək xarakteri daşımaqla yanaşı, aztəminatlı ailələrin qayğı ilə əhatələnməsi, əlamətdar günlərdə bayram əhval-ruhiyyəsi yaşatmaq məqsədi daşıyır.



# "Azərbaycanım" fotomüsabiqəsi üzrə sərgi və qaliblərin mükafatlandırma mərasimi keçirilib

***Dekabrın 26-da Heydər Əliyev Mərkəzində "Azərbaycanım" müsabiqəsinə təqdim olunan fotolardan ibarət sərgi və qaliblərinin mükafatlandırılması mərasimi olub. AZƏRTAC xəbər verir ki, "Regional İnkişaf" İctimai Birliyi və "Orxan Aslanov studiyası"nın birgə elan etdiyi müsabiqəyə 3000-dən çox foto təqdim edilib. Onların arasından seçilən 165 foto Heydər Əliyev Mərkəzindəki sərgidə nümayiş edilib. Layihə ölkənin unikal təbiətini, qədim tarixini, zəngin mətbəxini, adət-ənənələrini, mədəniyyət və incəsənətini, insanların sosial həyatını fotolarla geniş ictimaiyyətə tanıtmaq, eləcə də gənclərin fotoqraflıq peşəsinə marağını artırmaq, istedadları üzə çıxarmaq və onların fərdi bacarıqlarının inkişafına dəstək məqsədilə həyata keçirilib.***

Fotoqraf Orxan Aslanov çıxışı zamanı sərginin keçirilməsində Heydər Əliyev Mərkəzinə və "Regional İnkişaf" İctimai Birliyinə təşəkkürünü bildirib. Qeyd edib ki, bu ideya qeyri peşəkar fotoqrafları bir araya toplamaq üçün yaranıb. Layihənin qaydalarına əsasən, birinci yerin qalibi Sənan Müşayev, ikinci yerin qalibi müsabiqənin "Instagram" səhifəsində fotoların bəyənilmə sayı və münsiflər heyətinin rəyi əsasında Süleyman Süleymanlı, üçüncü yerin qalibi isə sərgi zamanı keçirilən səsvermə nəticəsində Nicat Adıgözəlov müəyyən edilib. Tədbirdə qaliblərə qiymətli hədiyyələr və diplomlar, fərqlənən iştirakçılara həvəsləndirici mükafatlar təqdim olunub. Layihənin davamı olaraq regionlarda fotoqrafiya təlimləri və sərgilərin təşkili nəzərdə tutulur. Qeyd edək ki, müsabiqə noyabrın 18-dən dekabrın 18-dək davam edib.










# "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinə başlanılması ilə əlaqədar mətbuat konfransı keçirilib

***Dekabrın 27-də "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinə başlanılıb. AZƏRTAC xəbər verir ki, bununla əlaqədar mətbuat konfransı keçirilib. Müsabiqənin keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva qeyd edib ki, "Yüksəliş" müsabiqəsində qarşıya qoyulan məqsədlərdən biri yeni nəsil idarəçilərin müəyyənləşdirilməsidir. Bu müsabiqə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar kursunun bir halqasıdır.***

Fərəh Əliyeva bildirib ki, kadr ehtiyatı bankının yaradılması üçün bu müsabiqə ən əlverişli müsabiqələrdən biri olacaq. Azərbaycanda idarəçilik vərdişləri olan və öz potensialına inanan hər kəs bu müsabiqədə iştirak edə bilər. Müsabiqə Azərbaycanda kadrların bilik və bacarıqlarının inkişaf etməsinə mühüm töhfə verəcək.

Təşkilat Komitəsinin sədri əlavə edib ki, dövlət qulluğunda namizədlər elan olunmuş konkret vakansiyalara malik olduqları biliklərdən istifadə etməklə mübarizə aparırlar. "Yüksəliş" müsabiqəsində isə seçim beynəlxalq aləmdə qəbul olunmuş kompitensiyaların aşkarlanmasına yönəlib: "Biz idarəçiləri axtaranda təkcə onların intellektual səviyyəsini deyil, həm də onlarda hansı kompitensiyaların olduğunu öyrənirik. Bu sahədə kifayət qədər beynəlxalq təcrübə öyrənilib. Bu kompitensiyalar kadrla işləmək bacarığı, şəxsi, mənəvi-etik keyfiyyətlərdir. Müsabiqənin saytında həmin kompitensiyalar barədə kifayət qədər məlumat olacaq. Ola bilər ki, "Yüksəliş" müsabiqəsinə hazırda dövlət qulluğunda işləyən, müəyyən sahələrdə çalışan insanlar qatılsınlar. Bu müsabiqədə iştirakın onların karyerasına hər hansı mənfi təsiri olmayacaq".



Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, indiyə qədər imtahanlar test üsulu ilə keçirilib. Bu imtahanlarda insan qiymətləndirməsi olmayıb. "Yüksəliş" müsabiqəsində isə insan amili var. Belə ki, yarımfinal və final mərhələsində iştirakçıları ekspertlər, psixoloqlar, idarəçi şəxslər qiymətləndirirlər. Bundan başqa, xaricdən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə treninqlər də keçiriləcək. Bu formatın özü bizim üçün yenidir: "Bu prosesin şəffaf, obyektiv keçirilməsinə nəzarəti bizdən başqa media nümayəndələri də həyata keçirəcəklər. Biz media nümayəndələrini dəvət edəcəyik. Onlar prosesi müşahidəçi kimi izləyə biləcəklər".

Təşkil Komitəsinin üzvü, Gənclər və İdman naziri Azad Rəhimov "Yüksəliş" müsabiqəsinin kadr potensialının yaradılmasında böyük rol oynayacağını vurğulayıb. O, müsabiqəyə 21-51 yaşlı insanların dəvət edilməsinin təsadüfi olmadığını söyləyib. Bildirib ki, 21 yaşlı gənclər çox fəaldır, dövlət və ölkə üçün önəmli işlər görməyə çalışırlar: "51 yaşa gəlincə, insanlar var ki, bu yaşa qədər özünü göstərə bilməyib, ancaq böyük təcrübəyə, biliyə malikdir. Ona görə də bu insanlara da şərait yaradılmasını nəzərdə tutmuşuq". Nazir qeyd edib ki, "Yüksəliş" müsabiqəsinin məqsədi Azərbaycanda yeni nəsil idarəçilərin ortaya çıxarılmasıdır. "Yüksəliş" çox maraqlı bir müsabiqədir və insanların qarşısında yeni imkanlar açacaq.

Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev müsabiqənin şərtləri ilə bağlı məlumat verib: "Müsabiqənin beş ay davam etməsi nəzərdə tutulub, iyun ayında onun başa çatacağını düşünürük. Müsabiqədə 20 qalib olacaq və onların hər birinə 20 min manat veriləcək. Məbləğin 10 min manatı həmin şəxsin təhsili, 10 min manatı isə şəxsi xərc üçün nəzərdə tutulacaq". Nazir müavini bildirib ki, bu cür müsabiqələr dünyanın bir çox ölkələrində var: "Bunun üçün biz dünya təcrübəsini öyrəndik və belə bir layihə ortaya çıxdı. Biz, eyni zamanda, bu layihəni sınaqdan keçirmişik".

Təşkilat Komitəsinin digər üzvü, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, "Yüksəliş" müsabiqəsi kadr potensialının yaradılması üçün keçirilir. Müsabiqədə daha çox namizədlərin keyfiyyətləri yoxlanılacaq. Müəyyənləşdiriləcək ki, insanlar hansı dərəcədə kreativliyə malikdirlər, onların hansı ayrı xüsusiyyətləri var. Yəni, onlar həmyaşıdlarından, bu sahədə iştirak edən insanlardan hansı xüsusiyyətlərinə görə seçilirlər. Müsabiqədə psixometrik testlər də istifadə ediləcək və bu testlərin nəticəsində insanlara məsləhətlər veriləcək. Sonra "Yüksəliş" müsabiqəsinin tanıtım çarxı nümayiş olunub. Daha sonra suallar cavablandırılıb.

# Əli Əhmədov: “Maraqlı və gərgin seçki kampaniyası aparacağımıza əminəm”

*“Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərdə iştirak etmək üçün namizədlərini müəyyən etdi. Cəmiyyətin və siyasi partiyaların bizim namizədləri elan edəcəyimiz günü səbirsizliklə gözlədiklərini bilirdim. Bu ondan xəbər verir ki, Yeni Azərbaycan Partiyası sözün həqiqi mənasında möhtəşəm siyasi gücdür”. Bunu özünün facebook səhifəsində Yeni Azərbaycan Partiyasının Sədr müavini-icra katibi, Baş nazirin müavini Əli Əhmədov yazıb.*



YAP-ın sədr müavini qeyd edib ki, hamı, bütün siyasi partiyalar, bizə rəqib olanlar da, bu fikrə düşməyi ağıllarına belə gətirməyən partiyalar da bu gücü etiraf edirlər: “Namizədlərimizin sırasında çoxlu gənclər var. Bunu təbii qəbul etmək lazımdır. İnanıram ki, 2020-ci il fevral ayının 9-da seçicilərin əksəriyyəti Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcək, Prezident İlham Əliyevin islahatlar strategiyasına öz dəstəklərini növbəti dəfə göstərəcəklər. Yeni Azərbaycan Partiyası olaraq həmişəki kimi maraqlı və gərgin seçki kampaniyası aparacağımıza əminəm. Partiyamıza və ayrı-ayrılıqda hər bir namizədimizə uğurlar arzulayıram”.

# Nizami Cəfərov: Bəşəriyyəti narahat edən bir çox problemlər Bakıda müzakirə olunur, ölkəmiz bu istiqamətdə mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir



***“Müasir müstəqil Azərbaycan dövləti bütün dünyada yaşayan azərbaycanlıların vətəni hesab olunur”. Bu fikri Milli Məclisin deputatı, akademik Nizami Cəfərov deyib.***

N.Cəfərov bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası bütün azərbaycanlıları vacib məqsədlər ətrafında birləşdirir. Bu məqsədlər birlik və həmrəylik, müstəqil dövlətimizin inkişafına və daha da gücləndirilməsinə xidmət etməkdən ibarətdir: “Dövlətimizin başçısının 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə dünya azərbaycanlılarına təbrikində qeyd etdiyi kimi, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olub. Cənab Prezident təbrikində onu da bildirib ki, dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Məhz bunun nəticəsidir ki, bəşəriyyəti narahat edən bir çox problemlər Bakıda müzakirə olunur, ölkəmiz bu istiqamətdə mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir”.

N.Cəfərov qeyd edib ki, Azərbaycan bu gün dünyada sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlıq məkanı kimi tanınır. Millət vəkilinin fikrincə, bu il ərzində ölkəmizin Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycana keçməsi dövlətimizin beynəlxalq müstəvidə artan nüfuzundan xəbər verir. “Digər vacib bir məqam isə dövlət başçısının Sərəncamı ilə 2019-cu ilin Azərbaycanda “Nəsimi ili” elan olunmasıdır. Bilirsiniz ki, mütəfəkkir şairimiz İmadəddin Nəsiminin 650 illik yubileyi Azərbaycanda və dünyanın bir sıra ölkələrində böyük təntənə ilə qeyd olunub. Bu prosesdə xaricdə yaşayan soydaşlarımız da fəal iştirak ediblər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Nəsimi İli” çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi oldu”-deyə, N.Cəfərov vurğulayıb.

# Azad Rəhimov: Bu il ölkəmizdə gənclər siyasəti sahəsində 143 tədbir keçirilib

Cari ildə Azərbaycanda gənclər siyasəti sahəsində 143 tədbir keçirilib. Onlardan 124-ü yerli, 19-u isə beynəlxalq səviyyəli olub. AZƏRTAC xəbər verir ki, bunu Gənclər və İdman naziri Azad Rəhimov dekabrın 27-də media nümayəndələri ilə görüşdə deyib. Regionlarda nazirlik tərəfindən 129 kütləvi aksiya təşkil edildiyini vurğulayan A.Rəhimov bildirib ki, 206 gənc xarici ölkələrə ezam olunub, 1308 gənc isə Azərbaycana gəlib. Azərbaycan Gəncləri Günü münasibətilə cari il fevralın 1-də Bakı Konqres Mərkəzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən gənclərin respublika toplantısında 3500-dək gənc iştirak edib. Həmin toplantıda 6 nəfərə “Gənclər üçün Prezident Mükafatı” təqdim olunub.

# Siyavuş Novruzov: “Parlament seçkilərində də namizədlərimiz arasında gənclər, qadınlar üstünlük təşkil edir”

*“Bu gün hakim Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin qarşıdan gələn parlament seçkiləri ilə bağlı toplanması ölkə gündəmi oldu”. SİA-nın verdiyi məlumata görə, bunu YAP İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.*



O, qeyd edib ki, siyahının dəqiqləşdirilməsi üçün partiya geniş tədqiqat aparıb: “5 il müddətində partiyanın deputat olan üzvlərinin parlamentdə fəaliyyəti, seçicilərlə münasibətləri, öz dairəsindən olan şəxslərin problemlərinin parlamentdə qaldırılması, beynəlxalq aləmdə Azərbaycanı təmsiletmə, dövlətçilik və digər məsələlərlə bağlı atdıqları addımlar nəzərə alınıb. Bunun nəticəsi olaraq, növbəti siyahı hazırlanarkən həmin məsələlər önə çəkilir. Tədqiqatların nəticəsində hansı xarakterli namizədlərin irəli sürülməsi, köhnə namizədlərin yenidən irəli sürülüb-sürülməməsi məsələsi seçicilərlə sosiaoloji sorğu şəklində müzakirə olunub. Nəticədə partiyanın namizədlər siyahısı tərtib edilib. Bundan əlavə partiya sədrinin tapşırıq və göstərişləri də bu məsələdə xüsusi nəzərə alınır. Həyata keçirilən islahatlar, burada Milli Məclisin oynadığı rol, xüsusilə YAP üzvləri tərəfindən qarşıya qoyulan vəzifələrin necə yerinə yetirilməsi diqqətə alınır”.

Siyavuş Novruzov onu da vurğulayıb ki, partiya həm gənclərin, həm də qadınların bütün seçkilərdə iştirakına üstünlük verib: “Bundan öncə keçirilən bələdiyyə seçkilərində də xeyli gənclərin və qadınların namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülüb. Parlament seçkilərində də namizədlərimiz arasında gənclər, qadınlar üstünlük təşkil edir”.

YAP rəsmisinin sözlərinə görə, partiya 123 dairədən namizəd irəli sürüb: “Cəmi iki dairədən namizəd irəli sürməmişik. Naxçıvan Muxtar Respublikasında 3 saylı seçki dairəsindən və Xankəndi seçki dairəsindən namizədimiz yoxdur. Qalan bütün dairələrdən namizədlərimiz var. Deputat həmkarlardan bəzilərinin siyahıdan kənarda qalmasına gəlincə isə bu qərar YAP idarə heyətinin qərarıdır”. S.Novruzov onu da əlavə edib ki, Yeni zərbaycan Partiyasının deputatlığa namizədlərinin siyahısı Mərkəzi Seçki Komissiyasına təqdim olunub: “Kim maraqlanırsa, oradan götürə bilər”.modern.az

***Ceyhun Rasimoğlu***

# DSX: “İrandan Azərbaycana 38 kiloqrama yaxın narkotik vasitənin keçirilməsinin qarşısı alınıb”

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində əməliyyat-qoşun tədbirləri davam etdirir.



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 20-də Xidmətin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Ağalı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən iki nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib.

Sərhəd naryadının “Dayan!” əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucuları əllərindəki çantanı əraziyə ataraq havanın qaranlıq və ərazinin kolluq olmasından istifadə edərək geriyə qaçıblar. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, nəticədə iki çantada içərisində 13 kiloqram narkotik vasitə (1 kiloqram 355 qram marixuana, 6 kiloqram heroin, 4 kiloqram 265 qram metamfetamin, 1 kiloqram 340 qram tiryək və 990 ədəd “Preqabalin - 150”, 300 ədəd “Tramadol FM-40” markalı həbb) aşkar olunaraq götürülüb.

Narkotik vasitələrin sifarişçisinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 4 nəfər Biləsuvar rayonunun Zəhmətabad kənd sakini şübhəli şəxs qismində saxlanılıb. Dekabrın 23-də DSX-nin Sərhəd Qoşunlarının “Lənkəran” sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Züngüləş kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində qaçaqmalçılar tərəfindən dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Nəticədə hadisə yerində 24 kiloqram 765 qram narkotik vasitə (4 kiloqram 65 qram heroin, 20 kiloqram 700 qram tiryək) aşkarlanaraq götürülüb. Həmin faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Gürcüstan bu ilin 11 ayında Azərbaycandan 904 milyon kilovat/saat elektrik enerjisi alıb

Gürcüstan yanvar-noyabr aylarında 1 milyard 415,9 milyon kilovatt/saat elektrik enerjisi idxal edib. Bunun da 63,84 faizini (904 milyon kilovat/saat) Azərbaycandan alıb. Bu barədə Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Natia Turnava “Palitranews” telekanalında yayımlanan “360 dərəcə” verilişində deyib. Gürcüstanın elektrik enerjisi bazarının açıq və rəqabətli olduğunu vurğulayan N.Turnava ölkədə elektrik enerjisi tariflərində artımın gözlənilmədiyini bildirib.

# Məhərrəm Əliyev: “Ordu quruculuğu məsələləri Prezident, Ali Baş Komandan İlham Əliyevin ciddi nəzarətindədir”



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Administrasiyanın Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyev son illərdə ordu quruculuğu, ölkəmizin müdafiə qabiliyyətinin, şəxsi heyətinin peşəkarlığının və mənəvi-psixoloji hazırlığının gücləndirilməsi istiqamətində görülən işlər barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

**- Əvvəlcə, Sizi yeni vəzifəyə təyin olunmağınız münasibətilə təbrik edirik. Zəhmət olmasa, əmək fəaliyyətiniz barədə qısaca məlumat verərdiniz.**

- Xoş sözlərə görə Sizə təşəkkür edirəm. Xidməti fəaliyyətim haqqında geniş danışmağa ehtiyac görmürəm. Lakin oxucuların marağını nəzərə alaraq, məlumat vermək istərdim ki, 1973-cü ildən 2007-ci ilədək polis orqanlarında xidmət etmişəm, Bakı şəhərinin Nizami, Sabunçu, Xətai, Səbail rayon polis idarələrində rəhbər vəzifələrdə çalışmışam.

1993-cü ildən 2007-ci ilədək Daxili İşlər Nazirliyinin Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsində fəaliyyət göstərmişəm. 2007-2011-ci illərdə Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışmışam. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin müdafiə məsələləri şöbəsinin müdiri, 2017-ci ildə Azərbaycan Respublikasının Ədliyyə nazirinin müavini vəzifələrinə təyin edilmişəm. Cari il noyabrın 29-da Azərbaycan Respublikasının Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşam və mənə “general-polkovnik” ali hərbi rütbəsi verilib.

Onu da qeyd etmək istərdim ki, bu illər ərzində hansı sahədə çalışmağımdan asılı olmayaraq, dövlətçiliyimizin möhkəmlənməsi üçün bilik və bacarığımı əsirgəməmiş, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməkdən hər zaman qürur duymuşam.

**- Bu vəzifəyə təyin edilərkən Silahlı Qüvvələrin Ali Baş Komandanı qarşınızda hansı tapşırıqları qoyub?**

- Öncə qeyd etdiyim kimi, Ali Baş Komandanın mənə göstərdiyi etimadı doğrultmağı özüm üçün ən vacib vəzifə hesab edirəm.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi qulluqçularla son görüşlərinin birində qeyd etdiyi kimi, “Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır... Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək”. Ali Baş Komandanın bu sözləri Silahlı Qüvvələrimizin inkişafının və möhkəmlənməsinin əsas istiqamətlərini və hədəflərini tam ifadə edib.

Bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, qüdrətli ordu quruculuğunun həyata keçirilməsi, müdafiə sənayesinin genişləndirilməsi, daha effektiv silahların və döyüş texnikalarının istehsal edilməsi, Azərbaycan Ordusu ilə digər hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yüksəldilməsi kimi tapşırıqlar durur.

Son illər ərzində Silahlı Qüvvələrdə bu istiqamətdə çox ciddi və əhəmiyyətli işlər görülüb, müdafiə qabiliyyətimizin artırılması, şəxsi heyətin peşəkarlığının və mənəvi-psixoloji hazırlığın gücləndirilməsi, yeni hərbi hissə komplekslərinin istifadəyə verilməsi, hərbi qulluqçuların mənzil təminatının yaxşılaşdırılması sahəsində böyük nailiyyətlər əldə olunub.

2016-cı ilin aprel döyüşləri zamanı düşmənə sarsıdıcı zərbələrin endirilməsi nəticəsində Ermənistan tərəfinin atəşkəs rejiminin bərpası üçün israrlı müraciətlər etmək məcburiyyətində qalması, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində əldə olunmuş Günnüt zəfəri, həmçinin Azərbaycan sərhədçilərinin 2019-cu ildə Qazax rayonunda Babakar istiqamətində əldə etdikləri ciddi uğurlar Silahlı Qüvvələrimizin real qüdrətinin mühüm nümayişi olubdur.

Hesab edirəm ki, bundan sonra da bu işlər daha yüksək müstəvidə davam etdiriləcək, Ali Baş Komandanımızın hər bir əmrini icra etmək üçün Silahlı Qüvvələrimizin daimi döyüş hazırlığı tam təmin olunacaqdır.

**- Xidməti fəaliyyətinizə başladıqdan sonra hansı qurumlarla görüş keçirmisiniz?**

- Dekabrın 13-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin illik hesabat müşavirəsində iştirak etmişəm. Hesabat müşavirəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının, Çevik Hərəkət Qüvvələrinin, Sahil Mühafizəsinin və Sərhəd Nəzarətini komandanlarının məruzələri dinlənilib, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev geniş məzmunlu hesabat məruzəsi ilə çıxış edib.

Müşavirədə dövlət sərhədlərinin etibarlı mühafizəsi, dəniz sərhədlərinin təhlükəsizliyinin və sərhəd sularında sərhədboyu rejimin təmin edilməsi, dövlət sərhədindən buraxılış məntəqələrində effektiv sərhəd nəzarətinin həyata keçirilməsi, hərbi hissə və birləşmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində görülmüş işlər təhlil olunub, xidməti-döyüş fəaliyyətinin daha da yüksəldilməsi tədbirləri geniş müzakirə edilib.

Qeyd etmək istərdim ki, son illər ərzində Azərbaycan Ordusu ilə bərabər Dövlət Sərhəd Xidmətində ciddi inkişaf prosesləri həyata keçirilib, struktur islahatları aparılıb, peşəkar sərhədçi kadrların hazırlanması, dövlət sərhədinin əməliyyat və texniki yolla mühafizə imkanlarının genişləndirilməsi, dənizdə sərhəd təhlükəsizliyinin təminatı və karbohidrogen ehtiyatlarının hasilatı və daşınması infrastrukturun mühafizəsi, çevik qüvvələrin döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir silah və döyüş texnikası ilə təmin edilməsi, sərhəd keçid məntəqələrində sərhədkeçmə prosedurlarının sürətləndirilməsi istiqamətlərində önəmli nailiyyətlər əldə olunub.

Eyni zamanda, hesab edirəm ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq, Ermənistan Respublikası ilə dövlət sərhəd xəttinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin müdafiə və mühafizə altına götürülməsi hesabat ili ərzində Azərbaycan sərhədçilərinin xidməti-döyüş fəaliyyəti üçün ən vacib hadisə olub. Azərbaycan sərhədçiləri Ali Baş Komandanın bu tapşırığını böyük ruh yüksəkliyi ilə icra etmiş və təmas xəttində ciddi uğurlar əldə ediblər.

**- Dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının inzibati ərazilərindən keçən hissəsinin mühafizəsinin Müdafiə Nazirliyindən Dövlət Sərhəd Xidmətinə təhvil verilməsi məsələsinə münasibətinizi bilmək maraqlı olardı.**

- Qeyd etdiyiniz istiqamətdə dövlət sərhədinin keçdiyi təmas xəttində xidməti-döyüş fəaliyyətinin həyata keçirilməsi vəzifəsinin Dövlət Sərhəd Xidmətinə həvalə edilməsi barədə qərar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qəbul olunub. Ali Baş Komandanın qərarı isə müzakirə edilmir, mütləq qaydada icra olunur. Hesab edirəm ki, bu qərarın qəbul edilməsi ilə Azərbaycan sərhədlərinin tam mühafizə altına götürülməsinin, yəni, işğaldan azad edəcəyimiz Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazisindən keçən Azərbaycan-Ermənistan dövlət sərhəd xəttində, həmçinin Fizuli, Cəbrayıl və Zəngilan rayonları ərazisindən keçən Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsində üçrəngli dövlət bayrağımızın ucaldılması prosesinə başlanılıb. Həmçinin bu qərar Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi hissə və bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsinə, yeni ehtiyat qüvvələrin yaradılmasına, şəxsi heyətin döyüş hazırlığının gücləndirilməsinə yönəlib.

Bu istiqamətdə görülən bütün işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ciddi nəzarətindədir. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının tərkibində “Qazax” əlahiddə sərhəd diviziyasının yaradılması isə bu sahəyə verilən önəmin daha bir göstəricisidir.

Hazırda Qazax və Ağstafa rayonları ərazisində dövlət sərhədinin müdafiəsi və mühafizəsinin təşkili, müasir sərhəd mühafizə infrastrukturunun formalaşdırılması istiqamətində mühüm işlər görülür. Hesabat müşavirəsində bu işlər ətraflı müzakirə olunub, həmçinin ictimaiyyətə bu barədə geniş məlumat verilib.

Təkcə onu qeyd etmək kifayətdir ki, çox qısa müddət ərzində bütün sərhəd döyüş məntəqələri tam yenidən inşa olunub, 3 yeni hərbi hissə kompleksi xidməti istifadəyə verilib, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üçün yeni təhlükəsiz sədlər və yollar salınıb, şəxsi heyətin xidməti və yaşayış şəraitinin yaxşılaşdırılması üzrə ciddi işlər görülüb. Düşmən təxribatlarının qarşısının alınması məqsədilə sərhəd döyüş məntəqələrinin döyüş mövqelərinin 1,5-1,7 kilometr məsafədə irəli çəkilməsinə, nəticədə Gürcüstandan Ermənistana gedən qaz xəttinin, həmçinin qaz kompressor stansiyasının tam nəzarətdə saxlanılmasına nail olunub.

Həmçinin qeyd etməliyəm ki, “Qazax” əlahiddə sərhəd diviziyasında həyata keçirilən təmir-tikinti işlərinə baxış keçirmək, şəxsi heyət üçün yaradılan şərait və xidmətin xüsusiyyətləri ilə tanış olmaq məqsədilə Hərbi məsələlər şöbəsinin bir qrup əməkdaşları dəfələrlə həmin əraziyə ezam olunublar. Bütün bu istiqamətdə görülən müsbət işlər Silahlı Qüvvələrin Ali Baş Komandanına məruzə olunub.

**- Sonda bir hərbi qulluqçu kimi Silahlı Qüvvələrə nə arzu edərdiniz?**

- Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin şəxsi heyətini, onların ailə üzvlərini və yaxınlarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında böyük qələbə sevincini yaşamalarını arzulayıram.

## BƏƏ XİN “Bəşər qardaşlığı: Bütün dünyada sülh və birgəyaşayış naminə” bəyannaməsini ictimaiyyətə təqdim edib

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər Nazirliyi Roma Papası Fransiskin bu ölkəyə səfəri zamanı imzalanmış “Bəşər qardaşlığı: Bütün dünyada sülh və birgəyaşayış naminə” adlı bəyannaməni ictimaiyyətə təqdim edib. Bu barədə AZƏRTAC-a BƏƏ-nin Azərbaycandakı səfirliyindən məlumat verilib.

Xatırladaq ki, Roma Papası Birləşmiş Ərəb Əmirliklərinə Əbu-Dabi vəliəhdi, Şeyx Mohammed bin Zayed Al-Nahyanın dəvəti ilə cari il fevralın 3-5-də ilk dəfə rəsmi səfər edib. Səfər çərçivəsində dünyanın müxtəlif ölkələrindən gəlmiş dini liderlərin iştirakı ilə bəşər qardaşlığına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Konfrans çərçivəsində Roma Papası Fransisk və Əl-Əzhər məscidinin imamı şeyx Əhməd ət-Tayyibin birgə bəyannamə imzalayıblar. “Bəşər qardaşlığı: Bütün dünyada sülh və birgə yaşayış naminə” bəyannaməsinin Azərbaycan və rus dillərinə tərcüməsi ilə bu linkdən tanış olmaq mümkündür.

# Azərbaycan etibarlı tranzit ölkəyə çevrilib

*Prezident İlham Əliyev: "Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir"*



**Bu gün Azərbaycan öz nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, öz təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, nəqliyyatın inkişafı da hər bir ölkə və ya ayrılıqda region üçün mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, lazımi nəqliyyat infrastrukturu yaratmadan uğurlu inkişafa nail olmaq mümkün deyil.**

Dəmiryol nəqliyyatı isə əsrdən də artıq bir dövrdə yük və sərnişin daşımalarında mühüm potensial istiqamət kimi daha çox diqqət çəkir. Çünki bu nəqliyyat vasitəsilə daha böyük həcmdə yükləri və çox sayda sərnişinləri münasib zaman çərçivəsində daşımaq mümkündür. Bu baxımdan, dəmir yolları digər nəqliyyat vasitələrindən bütün parametrlər üzrə mühüm perspektivləri ilə fərqlənir. "Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul edərkən bildirib: "Onu da əlavə etməliyəm ki, nəqliyyat infrastrukturunun səviyyəsinə görə biz dünyada 31-ci yerdəyik. Yeni Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir, keçən il yeni dəniz ticarət limanı, 2017-ci ildə Bakı-Tbilisi-Qars tarixi dəmir yolu istifadəyə verilib, daxili dəmir yolları müasirləşir. Bir sözlə, Davos hesabatında bizim yüksək yerə malik olmağımız reallığı əks etdirir. Ancaq bununla paralel olaraq, biz gələcəkdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Çünki ölkəmizin uğurlu inkişafı, o cümlədən, nəqliyyat infrastrukturundan asılıdır".

Dövlət başçısı son illər dəmir yolu infrastrukturuna böyük investisiyalar qoyulduğunu və bu investisiyalar hesabına dəmir yolu infrastrukturu böyük dərəcədə inkişaf etdiyini diqqətə çatdırıb.

Azərbaycanın dəmir yolu nəqliyyatı indi özünün sürətli inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən irihəcmli islahatlar, bütün sahələrdə olduğu kimi, dəmir yolu nəqliyyatında da uğurla həyata keçirilir. Son vaxtlar dəmir yolunda ən müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması dövrü başlayıb.

"Bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi öz xidmətlərini göstərir" deyən Cənab Prezident bildirib ki, hər bir ölkənin öz tranzit potensialını inkişaf etdirmək üçün, ilk növbədə, qonşu ölkələrlə yaxşı münasibətləri olmalıdır və bu gün bu, reallıqdır: "Təkcə son bir-iki ay ərzində mənim dörd qonşu ölkənin rəhbərləri - Rusiya Prezidenti, Türkiyə Prezidenti, İran Prezidenti və Gürcüstanın Baş naziri ilə görüşlərim olubdur. Bu görüşlərdə, o cümlədən, bizim nəqliyyat sahəsində əməkdaşlığa da kifayət qədər böyük vaxt ayrılmışdır. Bir sözlə, bizim tranzit potensialımız gələcəkdə qeyri-neft sektorunun inkişafına daha da böyük dərəcədə xidmət göstərəcək. Bu gün də qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payının çoxaldılması istiqamətində nəqliyyat sektorunun rolu artmaqdadır".

### "Dəmir yolu nəqliyyatı sahəsindəki əməkdaşlıq ölkələri bir-birinə daha da yaxın edir, təhlükəsizliyi möhkəmləndirir"

Azərbaycan Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı layihəsinə qoşulmaqla gələcəyə hesablanmış daha bir addım atmış oldu. Regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verən Azərbaycan, növbəti dəfə bütün dünyaya bəyan etdi ki, ölkəmizin təşəbbüsü ilə qlobal əhəmiyyətli layihələr həyata keçirilir. Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı regionda sabitliyə, eləcə də, iqtisadi inkişafa böyük töhfədir. Tarixi İpək Yolu üzərində qurulan bu yol Transavropa və Transasiya Dəmir Yolu şəbəkələrinin birləşməsində böyük əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars Dəmir Yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırmış oldu. Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars Dəmir Yolu xətti tarixi əhəmiyyət daşıyır. Bu dəmir yolu, ilk növbədə, yük daşımalarındakı intensivliyi artırır. Qeyd edək ki, bu layihə ölkələr arasında ticari və iqtisadi əlaqələrin genişlənməsinə və bundan irəli gələn sabitliyə yönələn layihədir. Çindən başlayaraq bütün Orta Asiya ölkələrini əhatə etməklə, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirərək Avropaya uzanan, Tarixi İpək Yolunun önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars Dəmir Yolu xətti dövlətlər arasında münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edir. "Biz hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır" deyən Prezident İlham Əliyev bildirib ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib: "Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində, Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaq".

"Vaxtilə Azərbaycanın təşəbbüsü ilə başlanan və bizim böyük maliyyə dəstəyimizlə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolu çox mühüm əhəmiyyət daşıyır" deyən Prezident qeyd edib ki, biz dəmir yolunun təməlini qoyanda da, bunu demişəm ki, bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir. Dövlət başçısı Şimal-Cənub Nəqliyyat Dəhlizinə də çox böyük diqqət yetirildiyini bildirib: "Azərbaycan ərazisində bütün işlər yekunlaşıb, o cümlədən, İran sərhədinə qədər uzanan dəmir yolunun tikintisi də, artıq 2 ildir ki, tamamlanıb. O cümlədən, dəmir yolu körpüsü tikilib və hazırda Şimal-Cənub Nəqliyyat Dəhlizi işləyir. 2018-ci ildə bu dəhlizlə daşınan yüklərin həcmi 8 dəfə, bu ilin 9 ayında daha 70 faiz artmışdır. Yəni böyük potensial var və eyni zamanda, Şimal-Qərb Nəqliyyat Dəhlizi işləyir. Rusiyadan, həmçinin, İrandan gələn yüklər Qərb istiqamətinə Azərbaycan ərazisindən daşınır. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir. Dəmir yolu nəqliyyatı sahəsindəki əməkdaşlıq ölkələri bir-birinə daha da yaxın edir, təhlükəsizliyi möhkəmləndirir, bölgədə vəziyyəti daha da müsbət istiqamətdə inkişaf etdirir və hər bir ölkəyə böyük iqtisadi dividendlər gətirir".

### "Vətəndaşlar indi dəmir yolu ilə getməyi seçəcəklər, çünki həm rahatdır, təhlükəsizdir, həm də məsafə və vaxt baxımından daha da əlverişlidir"

Cənab Prezident onu da bildirib ki, yollar tamamilə yenidən qurulmalır ki, qatarların sürəti artsın: "Hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə gedir. Bu, böyük yükləri daşımağa və sərnişinlərə keyfiyyətli xidmət göstərməyə imkan vermir. Ona görə bizim məqsədimiz həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin dəmir yolu hissəsinin modernləşdirilməsidir. Elə etməliyik ki, qatarlar saatda minimum 140 kilometr sürətlə hərəkət edə bilsin".



Ölkəmizdə dəmir yolları yenidən qurulur. Son 25 ildə, sadəcə, 5-10 elektrik qatarı var idi ki, onlar da 40 ildən çox idi işləyirdi və istismar müddəti başa çatıb. Bu gün Prezidentin göstərişini ilə insanların rahatlığı məqsədi ilə dəmir yolları qurulur və istifadəyə verilir. Xatırladaq ki, Bakı-Sumqayıt dəmir yolu ilə hər gün 12 min sərnişin daşınır. Dövlət başçısının vrğuladığı kimi, "Vətəndaşlar indi dəmir yolu ilə getməyi seçəcəklər, çünki həm rahatdır, təhlükəsizdir, həm də məsafə və vaxt baxımından, daha da əlverişlidir".

Hazırda Ləki-Qəbələ yolunun tikintisi aparılır. Bu yolun uzunluğu 46 kilometrdir. Artıq yolun 11 kilometri qoyulub. Cənab Prezidentin tapşırığına əsasən, gələn ilin yay mövsümünə qədər istifadəyə veriləcək. Bakı-Yalama yolunda da işlər gedir. Ölkəmizin dəmir yollarının 60 faizi Sovetlər Birliyi dövründə elektrikləşdirilmiş yollar idi. Artıq bu və ya digər dəmir yolları yenilənir və sərnişinlərin istifadəsinə verilir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



***Dekabrın 27-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilmişdir. İclasda 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədləri müzakirə edilmiş və təsdiq olunmuşdur.***

## 09 fevral 2020-ci ildə Azərbaycan Respublikasında keçiriləcək Parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlər

(Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin 27 dekabr 2019-cu il tarixli iclasında təsdiq edilmişdir)

1 saylı Şərur-Sədərək seçki dairəsi
Talıbov Vasif Yusif oğlu
2 saylı Şərur seçki dairəsi
Həbibbəyli İsa Əkbər oğlu
4 saylı Naxçıvan şəhər seçki dairəsi
İbrahimov Eldar Rza oğlu
5 saylı Şahbuz-Babək seçki dairəsi
Novruzov Siyavuş Dünyamalı oğlu
6 saylı Culfa-Babək seçki dairəsi
Həmzəyeva Ülviyyə Tapdıq qızı
7 saylı Ordubad-Culfa seçki dairəsi
Quliyev Cəbi Hüseyn oğlu
8 saylı Binəqədi birinci seçki dairəsi
Əliyarlı Kübra Məhəmməd qızı

9 saylı Binəqədi ikinci seçki dairəsi
Qafarov Kamaləddin Nəsrəddin oğlu

10 saylı Binəqədi üçüncü seçki dairəsi
Əliyev Anar Məmməd oğlu
11 saylı Qaradağ seçki dairəsi
Hüseynov Aydın Nəsir oğlu

12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsi
Xasiyeva Səbinə Səməd qızı
13 saylı Xəzər - Pirallahı seçki dairəsi
Əliyev Rauf Asif oğlu
14 saylı Xəzər seçki dairəsi
Əhmədova Şəfəq Firudin qızı
15 saylı Yasamal birinci seçki dairəsi
Nağıyev Rauf Nəriman oğlu
16 saylı Yasamal ikinci seçki dairəsi
Səfərov İlham İlyas oğlu
17 saylı Yasamal üçüncü seçki dairəsi
Allahverdiyev Elnur Marat oğlu
18 saylı Nərimanov-Nizami seçki dairəsi
Rzayev Xudaqulu Əhəd oğlu
19 saylı Nərimanov birinci seçki dairəsi
Məmmədov Hikmət Baba oğlu
20 saylı Nərimanov ikinci seçki dairəsi
Allahyarlı Nihad Vüqar oğlu
21 saylı Nəsimi birinci seçki dairəsi
İbrahimqızı Məlahət İbrahim qızı

22 saylı Nəsimi ikinci seçki dairəsi
Hüseynov Sərraf Balaxan oğlu
23 saylı Nəsimi-Səbail seçki dairəsi
Rəhimov Elnur Fidail oğlu
24 saylı Nizami birinci seçki dairəsi
Mustafayev Elnur Elşad oğlu
25 saylı Nizami ikinci seçki dairəsi
Vəliyeva Sədaqət Süleyman qızı
26 saylı Sabunçu birinci seçki dairəsi
Hacıyeva Afaq Şirzad qızı
27 saylı Sabunçu ikinci seçki dairəsi
Salahzadə Əliabbas Qalib oğlu
28 saylı Sabunçu üçüncü seçki dairəsi
Cabbarova Xatirə Qılman qızı
29 saylı Səbail seçki dairəsi
Hüseynova Aytən Arif qızı

30 saylı Suraxanı birinci seçki dairəsi
Fətəliyeva Sevinc Həbib qızı
31 saylı Suraxanı ikinci seçki dairəsi
Ağcayev Nizaməddin Fərhad oğlu
32 saylı Suraxanı üçüncü seçki dairəsi
Həsənova Afət Əbil qızı
33 saylı Xətai birinci seçki dairəsi
Mirələmov Hüseynbala Fazil oğlu
34 saylı Xətai ikinci seçki dairəsi
Zabelin Mixail Yuryeviç
35 saylı Xətai üçüncü seçki dairəsi
Əliyev Turan Adil oğlu
36 saylı Xətai dördüncü seçki dairəsi
Rzayev Kənan Əfqan oğlu
37 saylı Nizami birinci (Gəncə) seçki dairəsi
Kərimzadə Pərvin Orxan qızı

38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi
Həmzəyev Naqif Ələşrəf oğlu

39 saylı Kəpəz birinci (Gəncə) seçki dairəsi
Cəfərov Müşviq Cəfər oğlu
40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsi
Quliyev Musa İsa oğlu
41 saylı Sumqayıt birinci seçki dairəsi
Hüseynova Hicran Kamran qızı
42 saylı Sumqayıt ikinci seçki dairəsi
Mirkişili Tahir Famil oğlu

43 saylı Sumqayıt üçüncü seçki dairəsi
Hacıyev Emin Məcid oğlu
44 saylı Sumqayıt-Xızı seçki dairəsi
Məmmədov Müşviq Fazil oğlu
45 saylı Abşeron seçki dairəsi
Əsədov Oqtay Sabir oğlu

46 saylı Şirvan seçki dairəsi
Quliyev Azər Əli oğlu
47 saylı Mingəçevir seçki dairəsi
Mirzəzadə Aydın Böyükkişi oğlu
48 saylı Yevlax seçki dairəsi
Məmmədov İlham Kazım oğlu
49 saylı Yevlax-Mingəçevir seçki dairəsi
Hüseynov Əli Məhəmməd oğlu
50 saylı Abşeron - Qobustan seçki dairəsi
Mikayılov Elman Elxan oğlu
51 saylı Qusar seçki dairəsi
Badamov Azər Camal oğlu
52 saylı Quba seçki dairəsi
Şeydayeva Aysel Balasultan qızı
53 saylı Quba-Qusar seçki dairəsi
Bayramlı Habil Laçın oğlu
54 saylı Şabran-Siyəzən seçki dairəsi
Qurbanov Sadiq Haqverdi oğlu
55 saylı Xaçmaz şəhər seçki dairəsi
Səlimov Eldəniz Adil oğlu
56 saylı Xaçmaz kənd seçki dairəsi
Mərdanov Kənan Zeynal oğlu
57 saylı Kürdəmir seçki dairəsi
Qəribov Nizami İsməli oğlu
58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi
Ələskərov Saleh Adil oğlu
59 saylı Salyan seçki dairəsi
Hacıyev Rəşad Əzizağa oğlu
60 saylı Salyan-Neftçala seçki dairəsi
Axundov Etibar Əkrəm oğlu
61 saylı Neftçala seçki dairəsi
Sadıqova Gültəkin Zakir qızı
62 saylı Saatlı seçki dairəsi
Ələkbərli Əziz Yusif oğlu
63 saylı Sabirabad birinci seçki dairəsi
Cəfərov Kamal Xaqani oğlu

64 saylı Sabirabad ikinci seçki dairəsi
Məmmədov Ramin Ələmşah oğlu
65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi
Əmiraslanov Əhliman Tapdıq oğlu
66 saylı Biləsuvar seçki dairəsi
Şahbazova Səyalə Əhmədağa qızı
67 saylı Cəlilabad şəhər seçki dairəsi
Həsənov Malik Əvəz oğlu
68 saylı Cəlilabad kənd seçki dairəsi
Nəsirov Elman Xudam oğlu
69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi
Sadıqov Etibar Sadıq oğlu
70 saylı Masallı şəhər seçki dairəsi
Məmmədov Məşhur Şahbaz oğlu
71 saylı Masallı kənd seçki dairəsi
İsgəndərov Anar Camal oğlu
72 saylı Yardımlı-Masallı seçki dairəsi
Əliyev Sərvər Məlikməmməd oğlu
73 saylı Lənkəran şəhər seçki dairəsi
Bağırov Güloğlan Baloğlan oğlu
74 saylı Lənkəran kənd seçki dairəsi
Rəcəbli Hadı Musa oğlu
75 saylı Lənkəran-Masallı seçki dairəsi
Paşazadə Cavanşir Hümmət oğlu
76 saylı Lənkəran-Astara seçki dairəsi
Əsgərov Ziyafət Abbas oğlu
77 saylı Astara seçki dairəsi
Mahmudov Rəşad Məmmədqulu oğlu
78 saylı Lerik seçki dairəsi
Məmmədov İqbal Nəriman oğlu
79 saylı İmişli seçki dairəsi
Əzimov Nazim Abdulrəhim oğlu
80 saylı İmişli-Beyləqan seçki dairəsi
Muradov Rüfət Ehtiram oğlu
81 saylı Beyləqan seçki dairəsi
İsmayılov Şahin Əmir oğlu
82 saylı Ağcabədi seçki dairəsi
Rzayev Tahir Musa oğlu
83 saylı Ağcabədi-Füzuli seçki dairəsi
Rəhimov Rəşad Akif oğlu
84 saylı Füzuli seçki dairəsi
Məmmədova Svetlana Gəray qızı

85 saylı Şamaxı seçki dairəsi
Lazımov Arif Hacımurad oğlu
86 saylı İsmayıllı seçki dairəsi
Muradov Zaur Fazil oğlu
87 saylı Ağsu-İsmayıllı seçki dairəsi
Hüseynov Əli Abbas oğlu
88 saylı Göyçay seçki dairəsi
Hacıyeva Ləman Amil qızı
89 saylı Göyçay-Ağdaş seçki dairəsi
Şükürov Rəşad Əlibala oğlu
90 saylı Ağdaş seçki dairəsi
Osmanov Cavid Həmid oğlu

91 saylı Ucar seçki dairəsi
Həsən Ramil Sahib oğlu
92 saylı Zərdab-Ucar seçki dairəsi
Əhmədov Urfan Nizaməddin oğlu
93 saylı Bərdə şəhər seçki dairəsi
Yıldırım Fatma Vidadi qızı
94 saylı Bərdə kənd seçki dairəsi
Məmmədov Qnyaz Vəli oğlu
95 saylı Tərtər seçki dairəsi
Əsədov Eldar Garay oğlu
96 saylı Goranboy-Naftalan seçki dairəsi
Məmmədov Anar İlyas oğlu
97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi
Vəliyev Ağalar İsrəfil oğlu

98 saylı Şəmkir şəhər seçki dairəsi
Qafarova Sahibə Əli qızı
99 saylı Şəmkir kənd seçki dairəsi
Həsənov Nurlan İrfan oğlu
100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi
Bayramov Kamran Fərhad oğlu
101 saylı Göygöl-Daşkəsən seçki dairəsi
Mirbəşiroğlu Elşad Mirbəşir oğlu
102 saylı Samux-Şəmkir seçki dairəsi
Səfərov Nizami Abdulla oğlu
103 saylı Gədəbəy seçki dairəsi
Hüseynova Sevinc Əmirəhməd qızı
104 saylı Gədəbəy-Tovuz seçki dairəsi
Məhərrəmova Elnarə Səməndər qızı

105 saylı Tovuz seçki dairəsi
Hüseynova Məhəbbət Müsəllim qızı
106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi
Tağıyev Niyazi Yusif oğlu
107 saylı Qazax seçki dairəsi
Seyidov Səməd İsmayıl oğlu
108 saylı Ağstafa seçki dairəsi
Cəfərov Nizami Qulu oğlu
109 saylı Balakən seçki dairəsi
Məhəməliyev Nəsib Məhəmməd oğlu

110 saylı Zaqatala seçki dairəsi
Bayramov Bəhruz Qurban oğlu
111 saylı Zaqatala-Balakən seçki dairəsi
Əliyeva Kamilə Əliağa qızı
112 saylı Qax seçki dairəsi
Əfəndi Mahir Qalib oğlu
113 saylı Şəki şəhər seçki dairəsi
İskəndərov Vüqar Yapon oğlu
114 saylı Şəki kənd birinci seçki dairəsi
İsmayılova Südabər Şöyüb qızı
115 saylı Şəki kənd ikinci seçki dairəsi
Həsənov Rahim Rafiq oğlu
116 saylı Qəbələ seçki dairəsi
Əliyev Samir Ramiq oğlu
117 saylı Oğuz-Qəbələ seçki dairəsi
Naxçıvanlı Aqiyə Həbib qızı
118 saylı Ağdam şəhər seçki dairəsi
Muradov Farid Mustafa oğlu
119 saylı Ağdam kənd seçki dairəsi
Sadıqov Bəxtiyar Yusif oğlu
120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi
Məmmədov Ceyhun Valeh oğlu
121 saylı Laçın seçki dairəsi
Abbaszadə Mahir Tapdıq oğlu

123 saylı Kəlbəcər seçki dairəsi
Məmmədov Aqil Sadiq oğlu
124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsi
Məmmədov Elman Camal oğlu
125 saylı Zəngilan-Qubadlı seçki dairəsi
İsmayılov İmamverdi İbiş oğlu

# Sudan səfirinin Azərbaycandakı diplomatik fəaliyyəti başa çatır

Xarici İşlər naziri Elmar Məmmədyarov Sudan Respublikasının Azərbaycan Respublikasındakı səfiri Abbas Mustafa Əhməd Abdallanı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan ilə Sudan arasında mövcud əməkdaşlıq münasibətləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Səfir Abbas Abdalla Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü çərçivəsində Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhanın Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayaraq, bunun ölkələrimizin əlaqələrinin inkişafına böyük töhfə verdiyini qeyd edib.

Nazir Elmar Məmmədyarov öz növbəsində Azərbaycanın Sudanla, o cümlədən Qoşulmama Hərəkatına üzv dövlətlərlə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini bildirib, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin vacibliyini vurğulayıb.

Səfir Abbas Abdalla Azərbaycanda diplomatik fəaliyyətinin uğurla həyata keçirilməsində ona göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib. Nazir Elmar Məmmədyarov səfir Abbas Abdallanın ikitərəfli münasibətlərin inkişafı istiqamətindəki səylərini yüksək qiymətləndirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

# Bakıdan Əmmana aviareys açılacaq



"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfiri Sami Abdullah Ğoşehlə görüşüb. Aviaşirkətin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu görüş İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin cari ilin dekabrın 10-da Azərbaycana rəsmi səfərinin yekunları əsasında baş tutub. Səfər çərçivəsində Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları" QSC-nin rəhbərliyinə iki ölkə arasında birbaşa hava əlaqəsinin qurulması barədə tapşırıq verib.

C.Əsgərov və səfir bütün prosedur məsələləri başa çatdırıldıqdan sonra Bakı ilə Əmman arasında uçuşların 2020-ci ilin may ayının sonundan etibarən həyata keçiriləcəyi barədə razılıq əldə ediblər. Reyslər həftədə iki dəfə "Buta Airways" aviaşirkətinin "Embraer 190" təyyarələri ilə yerinə yetiriləcək.

# "Növbəti illərdə yaradıcı sənayenin formalaşdırılması bizim üçün prioritet istiqamət olacaq"



Bütün mədəniyyət ocaqları çoxsaylı tədbirlərlə "Nəsimi ili"nə töhfə verib. Bunu Mədəniyyət naziri Əbülfəs Qarayev jurnalistlərə açıqlamasında deyib. İl ərzində həyata keçirilən tədbirlər barədə məlumat verən nazir deyib: "Ölkə başçısının müvafiq Sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan olunub ki, bu da özlüyündə mədəniyyət ili deməkdir. Çünki Nəsiminin yaradıcılığı dil, ədəbiyyat və fəlsəfə ilə bağlıdır. Sözsüz ki, bütün mədəniyyət ocaqları Sərəncamın icrası ilə ciddi məşğul olub".

Mədəniyyət naziri bildirib ki, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər də ilin uğurundan xəbər verir. Azərbaycanda UNESKO-nun 43-cü sessiyasının keçirilməsi, Şəki şəhəri və Xan Sarayının Dünya İrs siyahısına daxil edilməsi xalqımızın sevincinə səbəb olub. Ə.Qarayev Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə mədəniyyət sahəsində islahatların aparıldığını da vurğulayıb: "Müəssisələrimiz tərəfindən dəyərli təkliflər irəli sürülüb. Bu təkliflər sırasında həm maddi bazanın yaradılması, həm də yeni idarəetmə üsullarının tətbiqi öz əksini tapıb. İnanırıq ki, növbəti illərdə yaradıcı sənayenin formalaşdırılması bizim üçün prioritet istiqamət olacaq və dövlət əhəmiyyətli proqrama çevriləcək".

# Bakı MDB məkanında Yeni il yarmarkalarına səyahət üçün ilk beş şəhər sırasındadır

Bakı MDB məkanında Yeni il yarmarkalarına səyahət üçün ilk beş ən yaxşı şəhər sırasına daxil olub. AZƏRTAC xəbər verir ki, "TurStat" turizm portalı Yeni il qabağı istirahət günlərində və 2020-ci ilin yanvarında Yeni il şənliklərinə səyahətlər üçün MDB məkanında, o cümlədən Rusiyada ən yaxşı Yeni il və Milad festivallarının və yarmarkalarının reytinqini təqdim edib. 2019-cu ilin dekabrında və 2020-ci ilin yanvarında MDB ölkələrində turistlər üçün ən cəlbedici Yeni il və Milad yarmarkaları Rusiya, Belarus və Azərbaycanda təşkil edilir. MDB məkanında Milad yarmarkalarının reytinqi Yeni il və Milad festivalları və yarmarkalarının populyarlığının və unikallığının təhlilinin nəticələrinə əsasən tərtib edilib.

# Ekspert: Azərbaycan Prezidenti yerli jurnalistlərə müsahibəsində ölkəmizin baxış bucağını ortaya qoydu



Prezident İlham Əliyevin yerli jurnalistlərə ilin yekunları ilə əlaqədar müsahibəsinin bəzi məqamlarına diqqət çəkmək istəyirəm. Bunlardan birincisi Azərbaycanın Dünya Ticarət Təşkilatına (DTT) üzvlüyü məsələsi ilə bağlıdır. Heç kimə sirr deyil ki, mütəmadi olaraq bu məsələ ölkəmizdə və onun sərhədlərindən kənarda gündəmə gətirilir, Azərbaycanın milli maraqlarının qorunması istiqamətində nümayiş etdirdiyi qətiyyətli mövqe, az qala yanlış iqtisadi siyasət kimi təqdim olunur. Xüsusi olaraq vurğulanır ki, guya Azərbaycan həmin təşkilata üzv olarsa bu, ölkəmiz üçün yeni iqtisadi imkanlar açacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib.

Ekspert qeyd edib ki, Prezident İlham Əliyevin Azərbaycan-DTT münasibətləri ilə bağlı bütün məqamlara aydınlıq gətirməsi, düşünürəm ki, bu məsələ ətrafında manipulyativ siyasi gedişlər etməyə çalışan dairələrin bütün arqumentlərini əlindən aldı. Prezidentin məsələ ilə bağlı ətraflı şərhindən aydın oldu ki, Azərbaycan adların cazibədarlığına aldanıb siyasət yürütmür, o, bütün proseslərdə yalnız öz maraqlarını, inkişafına töhfə verəcək real amilləri, vətəndaşlarının rifahına xidmət edəcək məqamları əsas götürür. Əgər bu gün Azərbaycanda qeyri-enerji sektorunun inkişafından söhbət gedirsə, ölkə iqtisadiyyatının ixracyönümlü olması prioritet vəzifə kimi ortaya qoyulubsa, o zaman bizə ölkə sərhədlərindən kənarda, məhsullarımızı ixrac edə biləcəyimiz bazarlar lazımdır, ölkəmizi başqalarının bazarına çevirmək yox.

Ekspert əlavə edib ki, Azərbaycan Prezidentinin Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı ilə bağlı məsələlərə də aydınlıq gətirməsi proqramla bağlı bəzi qrupların gəlişigözəl, təbliğat xarakterli mülahizələrini də alt-üst etdi. "Şərq tərəfdaşlığı" proqramı artıq 10 ildir ki, həyata keçirilir. Bu müddət ərzində proqram çərçivəsində qarşıya qoyulan vəzifələrin heç biri reallaşmayıb. Proqrama daxil olan ölkələrin ərazi bütövlüyü ilə bağlı məsələlər öz həllini tapmayıb, münaqişələr tənzimlənməyib. Proqram çərçivəsində nəzərdə tutulan istiqamətlər üzrə irəliləyişə isə Azərbaycan heç bir kənar dəstək olmadan nail olub. Yəni, iqtisadiyyatın möhkəmləndirilməsi, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, kiçik və orta biznesin potensialının açılması, maliyyə və maliyyə infrastrukturuna girişin asanlaşdırılması, iş yerlərinin yaradılması, idarəçiliyin keyfiyyətinin artırılması, hüququn aliliyinin təmin edilməsi və korrupsiya əleyhinə mexanizmlərin təkmilləşdirilməsi, dövlət idarəçiliyində məhkəmə-hüquq sistemində islahatların aparılması, enerji təhlükəsizliyinin təmin edilməsi sahəsindəki irəliləyişlər Azərbaycanın öz uğurlarıdır və bu proses Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində, hər hansı bir proqram çərçivəsində həyata keçirilən tədbirlərin təsiri olmadan gerçəkləşdirilib. "Şərq tərəfdaşlığı" proqramının digər prioritet istiqamətləri üzrə - regional təhlükəsizlik və digər bu kimi sahələrdə ciddi irəliləyişlərin olmamasının səbəbi isə Avropa İttifaqinin beynəlxalq hüququn prinsiplərinin tətbiqi prosesində yol verdiyi ikili standartlar, proqramda təmsil olunan işğalçı ölkəyə - Ermənistana qarşı təzyiqlərin olmamasıdır.

Azərbaycan Prezidentinin ölkəmizin Avropa İttifaqı ilə münasibətlərinə diqqət çəkməsini qeyd edən siyasi ekspert vurğulayıb ki, bu istiqamətdə də müxtəlif "bəzəkli terminlər"in arxasında gizlənən məqamlar üzə çıxdı. Azərbaycanın Avropa İttifaqına üzv olmaq niyyəti yoxdur. Heç yaxın 50 ildə belə perspektiv də gözlənilmir. Biz dost və qardaş Türkiyənin Aİ-yə üzvlüyü ilə bağlı uzun illərdir ki, həyata keçirilən çirkin oyunların səbəblərini yaxşı bilirik. Bu baxımdan da ilğım perspektivlərin arxasınca sürünməkdənsə öz yolumuzla və öz yol xəritələrimizlə hərəkət edirik. Prezident Azərbaycanın müasir texnologiyaları öz iqtisadi gücü hesabına əldə etdiyini vurğuladı. Yəni, heç kim bizə havayı texnologiya vermir. Əgər ölkəmizin iqtisadi gücü olmasaydı, o zaman bu texnologiyaları da əldə də bilməzdik. Digər tərəfdən, bu gün dünyada ayrı-ayrı mədəniyyətlərin özünüqoruma instinktinin güclənməsi, modernləşmiş milli dövlətçilik ənənələrinə qayıdış prosesi gedir və bu, labüddür. Belə olduğu halda, Azərbaycan da öz xalqının identikliyini, milli dövlətçilik ənənələrini, mədəniyyətini qorumaq üçün onu öz içində əridə bilməyəcək, assimilyasiyaya uğratmayacaq qohum mədəniyyətlərlə davamlı əlaqədə, ünsiyyətdə olmalı və öz mədəniyyətinin üstün cəhətlərini ixrac etmək üçün əlverişli coğrafi məkanlara üstünlük verməlidir. Biz inteqrasiya adı altında könüllü assimilyasiya prosesinin iştirakçısı ola bilmərik. Biz mədəniyyətlərin qarşıdurması strategiyasının qarşısına mədəniyyətlərin dialoqu strategiyası ilə çıxmışıq və ölkəmizi humanitar problemlərin müzakirə və həll edildiyi platformaya çevirməyi bacarmışıq. Bu baxımdan, ksenofobiya, islamofobiya, antisemitizmin tüğyan etdiyi məkanlar bizim üçün cazibədar deyil.

Ekspert vurğulayıb ki, Prezident İlham Əliyevin müsahibəsində yer alan məqamlar təkcə 2019-cu ilin yekunlarının dəyərləndirilməsi baxımından deyil, ölkəmizin perspektivləri baxımından da müstəsna əhəmiyyət kəsb edir. Prezident ölkəmizin baxış bucağını ortaya qoydu və dünyada, regionda baş verən prosesləri daha aydın görmək üçün pəncərə açdı.

# AzerTelecom və Alibaba Group arasında əməkdaşlıq imkanları müzakirə olunub




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi "AzerTelecom" şirkətinin nümayəndə heyətinin "Azerbaijan Digital Hub" proqramının icrası çərçivəsində 17-18 dekabr tarixində Çin Xalq Respublikasına səfəri baş tutub. Səfər çərçivəsində Çinin texnologiyalar, e-ticarət, internet və digər əlaqəli sahələrdə fəaliyyət göstərən iri holdinqi olan "Alibaba Group"un rəhbərliyi ilə görüş keçirilib, əməkdaşlıq əlaqələri müzakirə olunub.

"AzerTelecom" şirkətinin baş direktoru Fuad Allahverdiyev və şirkətin strategiya üzrə müşaviri Azər Bayramov Çinin Hançjou şəhərində yerləşən "Alibaba Group"un Baş Ofisində şirkətin vitse-prezidenti Brayan Vonq ilə görüşdə "AzerTelecom"un icra etdiyi "Azerbaijan Digital Hub" proqramı barədə ətraflı məlumat veriblər. Bildirilib ki, proqramın məqsədi dayanıqlı infrastruktur qurmaqla Asiya ilə Avropa arasında Azərbaycandan keçəcək rəqəmsal ipək yolunu formalaşdırmaq, regional Data mərkəz qurmaq, dünyanın iri kontent provayderlərini Azərbaycanda fəaliyyət göstərməyə cəlb etmək və Azərbaycanı regional rəqəmsal mərkəzə çevirməkdir. Görüşdə icra olunan layihələr barədə məlumat verilib və qeyd edilib ki, proqram çərçivəsində Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında yaxın zamanda inşa ediləcək Transxəzər Fiber Optik kabel xətləri iri həcmli məlumatların ölkəmiz vasitəsilə Şərqə daşınmasına, Asiya qitəsinin data tranzitinə olan ehtiyacının qarşılanmasına imkan verəcək.

Həmçinin "AzerTelecom" nümayəndələrinin "Alibaba Group"a daxil olan və bulud xidmətləri təqdim edən "Alibaba Cloud" şirkətinin nümayəndələri ilə də görüşü keçirilib və şirkətlərin imkanları, eləcə də əməkdaşlıq perspektivləri müzakirə edilib.

Keçirilmiş görüşlərin yekunu olaraq "AzerTelecom" və "Alibaba Group" arasında gələcək əməkdaşlıq üzrə fəaliyyət planı razılaşdırılıb. Səfər çərçivəsində həmçinin Çinin texnologiyalar və telekommunikasiya sahələrində fəaliyyət göstərən bir sıra digər şirkətləri ilə də görüşlər keçirilib.

"AzerTelecom" Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. Hazırda AzerTelecom şirkəti Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" (ADH) proqramını icra edir. Proqramın reallaşması ölkənin Milli IT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, IT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir.

# "Bakcell"in Ulduzum proqramı abunəçilərə əlavə güzəştlər qazandırır




Bakcell şirkəti öz abunəçilərinə Azərbaycanda ən geniş əhatə dairəsi və ən sürətli mobil internet xidməti ilə yanaşı, istehlak bazarının demək olar ki, bütün seqmentlərində əlavə fürsət və üstünlüklər təklif edir. Ölkənin ən irimiqyaslı loyallıq proqramlarından biri olan "Ulduzum"dan istifadə edən Bakcell abunəçiləri 350-dən çox yerli və beynəlxalq tərəfdaşın 500-dən artıq satış və xidmət nöqtəsində eksklüziv endirimlərdən yararlanırlar. Proqramın istifadəçiləri məşhur restoran və otellər, nüfuzlu geyim, parfümeriya və elektronika mağazaları ilə yanaşı, sağlamlıq, idman və əyləncə mərkəzləri, kinoteatrlar, banklar, kitab dükanları, kabel televiziya provayderləri, beynəlxalq çatdırılma və hətta aviaşirkətlərin təklif etdiyi özəl kampaniyalar və endirimlərdən istifadə imkanına malikdirlər.

"Ulduzum" tərəfdaşlar şəbəkəsinə beynəlxalq elektron ticarət və çatdırılma xidməti sahəsinin ən uğurlu şirkətlərdən biri olan "Mover.az" da daxildir. Bu əməkdaşlıq sayəsində Bakcell abunəçiləri "Ulduzum" kodu vasitəsilə Türkiyədən olan bütün çatdırılmalara 10% endirim qazanırlar.

Kitabsevərlər də "Ulduzum" proqramından yararlanır, çünki proqram tərəfdaşlarının geniş siyahısına Azərbaycanın ən populyar kitab mağazaları şəbəkələrindən biri olan "Libraff" da daxildir. Belə ki, Bakcell abunəçiləri "Ulduzum" kodu vasitəsilə "Teas Press", "3 alma" və "YaY" nəşriyyatlarının kitablarına 10% endirim əldə edirlər. Geniş "Ulduzum" şəbəkəsinə həmçinin ölkənin iri bankları da daxildir. 31 dekabr 2019-cu il tarixinədək qüvvədə olan kampaniya çərçivəsində Bakcell abunəçiləri "Ulduzum" kodundan istifadə edərək "NBCBank"dan pulsuz multivalyuta Gold kartını əldə edə bilərlər.

Qeyd edək ki, bir müddət əvvəl Bakcell yenilənmiş "Ulduzum" mobil tətbiqetməsini istifadəyə verib. Mobil tətbiqəməni yükləmiş Bakcell abunəçiləri bu proqramın tərəfdaşlarını asanlıqla tapıb, endirim kodlarını əldə edə, mövcud təkliflər və yeniliklər barədə məlumat ala bilərlər. Həmçinin, yeni tətbiqetmə sayəsində istifadəçilər qənaət olunmuş məbləğlər, qoşulduqları kampaniyalar, qazanılan "keşbeklər", gün ərzində istifadə edilməyən kodlar və digər üstünlüklər barədə məlumat ala biləcəklər. Yeni tətbiqetmə həmçinin müxtəlif oyunlarda iştirak etmək və hədiyyə qazanmaq imkanı verir. Proqram haqqında ətraflı məlumatı www.ulduzum.az səhifəsindən almaq mümkündür.

# Qədim diyarımız Naxçıvanda ekoturizm sürətlə inkişaf edir

## Təbiətin və insan əlinin yaratdığı möcüzə

***Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı üçün geniş imkanlar var. Muxtar respublikanın rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət və təbiət abidələri, mövcud sabitlik, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik olan yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına zəmin yaradır.***

200-dən çox mineral su bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşıb. Bu da qədim diyarın turizm potensialının artmasına öz töhfəsini verir.

Qədim diyarın ərazisində olan flora və faunanın nadir növlərinin Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı"na daxil edilib və xüsusi mühafizəyə alınıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 27 faizini təşkil edir. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər isə burada turizmin bir çox növünün inkişafına şərait yaradıb.







### Muxtar respublikada kənd turizmi sürətlə inkişaf edir

Son illər muxtar respublikada kənd turizmi sürətlə inkişaf edir. Bunun əsaslı səbəbləri var. Qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan verib, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artıb. Bu gün Naxçıvanın ən ucqar dağ kəndlərinə belə rahat asfalt yollar salınıb, su xətləri çəkilib, müasir infrastruktur obyektləri tikilib, fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə xidməti və sürətli internet şəbəkəsi istifadəyə verilib. Muxtar respublikanın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Həmin kəndlərdə asudə vaxtını səmərəli keçirmək istəyən turistlərə həm də bütün zəruri xidmətlər təklif olunur. Həmçinin ailə təsərrüfatları tərəfindən hazırlanan ekoloji cəhətdən təmiz qida məhsulları və münasib qiymətlər turist məmnunluğunu səciyyələndirən amillərdəndir. Onu da deyək ki, 2019-cu ilin Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan edilməsi, verilmiş subsidiyalar, ailə təsərrüfatlarına göstərilən dövlət qayğısı bu sahənin inkişafını əhəmiyyətli dərəcədə sürətləndirib. Bu səbəbdən muxtar respublikanın kənd yaşayış məntəqələrinə gələn turistlər həm də onlarla çeşiddə təmiz ekoloji məhsullarla tanış olurlar.

### Naxçıvan fotoovçuluq üçün ən gözəl məkandır

Muxtar respublikaya səfər edən ekoturizm həvəskarları son dövrlərdə populyarlıq qazanmış fotoovçuluqla da məşğul ola bilərlər. Fotoovçuluğu bədii dillə "sakit ov" da adlandırırlar. Bu, turistlərə təbiətə ziyan vurmadan istirahət etmək şəraiti yaradır. Xüsusi mühafizə edilən təbiət ərazilərinin yaradılması, təbiəti mühafizə sahəsində görülən kompleks dövlət tədbirləri bu istiqamətdə də öz bəhrələrini verməkdədir. Belə ki, həmin tədbirlər əvvəllər sayı xeyli azalan bezoar dağ keçilərinin, muflonların sayının artmasına, ərazilərimizdə yeni heyvan növlərinin yaşaması üçün münbit şəraitin formalaşmasına stimul verib. Güclü mühafizə tədbirləri, ova qadağaların qoyulması yerli heyvan növlərinin sayının artmasına şərait yaradıb. Son illərdə muxtar respublika ərazisində dünyada nadir növlərdən olan bəbirlər müşahidə edilir. 2016-cı ildə Naxçıvan ərazisində bəbir ailəsinin qeydə alınması bu növlərin qədim diyarın ərazisində mövcudluğunun sübutudur.

### Muxtar respublikada qış turizmi inkişaf edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında" Sərəncamının uğurlu icrası dayanıqlı turizm sektoru formalaşdırmaqla yanaşı, turistlərin bütün xidmətlərdən kompleks şəkildə istifadəsinə də zəmin yaradır.

Qeyd edək ki, müasir dövrdə dünyanın inkişaf etmiş ölkələrinin turizmin inkişafı istiqamətində mübarizə apardıqları ən böyük problem mövsümilikdir. Naxçıvan Muxtar Respublikasında aparılan məqsədyönlü tədbirlər və yaradılmış infrastruktur mövsümilik probleminin tam həllinə hesablanıb. Statistikaya nəzər saldıqda muxtar respublikamıza ilin bütün fəsillərində turistlərin gəldiyini müşahidə edirik. Bu isə digər ölkələrin aradan qaldırmağa çalışdığı mövsümilik probleminin Naxçıvan Muxtar Respublikasında artıq həllini tapdığının əyani sübutudur. Hazırda tikintisi davam edən Ağbulaq Xizək Mərkəzi isə muxtar respublikada qış turizminin inkişafına mühüm töhfə verəcək, yeni turizm növlərinin formalaşmasına gətirib çıxaracaqdır.

### Güclü infrastruktura malik olan Naxçıvanın təhlükəsiz diyar olması onu turizmin çiçəkləndiyi məkana çevirir

Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla yanaşı, həm də sabitliklə, təhlükəsizliklə birbaşa bağlıdır. Hər iki amilin muxtar respublikada mövcudluğu, qədim diyarımızın cinayətsiz region kimi tanınması turistlərin bura gəlməsi üçün daha bir üstünlük yaradır. Bu gün muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan müasir infrastruktur dünyanın istənilən ölkəsi üçün nümunədir. Bu isə bütün sahələrdə olduğu kimi, turizm sahəsində də Naxçıvan modelinin formalaşdığının xəbərçisidir.

***AZƏRTAC-ın Naxçıvan bürosu***





# DOST layihəsi ölkəmizin yeni brendini formalaşdırıb

## Prezident İlham Əliyev: "Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir"

***Ölkəmizdə dövlət başçısı tərəfindən aparılan sosial siyasət insanların rifah halının yaxşılaşmasına, bu sahədə mühüm layihələrin həyata keçirilməsinə, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına zəmin yaradıb. Sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsipinin qorunmasıdır.***






Prezident İlham Əliyev dəfələrlə çıxışlarında dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını vurğulayıb. Hər zaman Azərbaycan xalqının yanında olduğunu və xalqın dəstəyinə arxalandığını bildirib. Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir.

DOST Agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. DOST Agentliyinin yaradılması "ASAN xidmət"in müsbət tendensiyasının davam etdirilməsi məqsədini daşıyır. Bu cür mərkəzlərin yaradılması məşğulluğun artırılmasının, həm də ölkəmizin dayanıqlı inkişafının təmin olunmasına xidmət edir. Məqsəd həm də dövlət büdcəsinə artıq yük olan xidmətlərin ödənişli əsaslarla agentliklər vasitəsilə verilməsidir.

Bu il may ayının 9-da istifadəyə verilən ilk "DOST" mərkəzi gün ərzində 350 vətəndaşı qəbul etmək imkanına malikdir. İlkin mərhələdə Bakının Yasamal və Səbail rayonlarının əhalisinə xidmət edən mərkəzdə vətəndaşa "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 126 xidmət göstərilir. Mərkəzdə 96 nəfər, "Gənc DOST" proqramı üzrə isə, 50 könüllü fəaliyyət göstərir. Azərbaycan vətəndaşları mərkəzin məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin, sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji və s. sahələr üzrə xidmətlərindən rahatlıqla yararlana bilirlər. Beləliklə, mərkəz vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"yə müraciət etməsinə və "bir pəncərə"dən faydalanmasına imkan verir. Mərkəz vətəndaşlara məsləhət və məlumat xidmətləri də göstərməklə, onların bilavasitə, telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərini həyata keçirir.

"DOST" mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihələrdəndir. Bu, "DOST" mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevriləcəyini deməyə əsas verir. DOST Agentliyi mərkəzlər vasitəsilə "bir pəncərə" prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərmək imkanına malikdir. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 "DOST" mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub.

Bu yaxınlarda Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı oldu. Bina müasir üslubda layihələndirilib və mühəndis sistemləri baxımından, ən yüksək tələblərə cavab verir. Yeni açılan DOST mərkəzi gün ərzində 250-300 vətəndaşı qəbul edə biləcək. Mərkəz Bakının Xəzər və Pirallahı rayonlarının əhalisinə xidmət göstərəcək. İl ərzində 70 mindən artıq vətəndaşa "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 xidmət göstəriləcək. Mərkəzdə 80 nəfər, "Gənc DOST" proqramı üzrə isə 40 könüllü fəaliyyət göstərəcək. Burada "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" də var. Beləliklə, bu mərkəz də vətəndaşların bütün xidmətlərdən "bir pəncərə"yə müraciət edib və "bir pəncərə"dən faydalanmasına imkan verir.

Qeyd edək ki, Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir.

Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışında iştirak edən Prezident İlham Əliyev DOST mərkəzlərinin yaradılmasını çox gözəl, əlamətdar hadisə kimi qiymətləndirib, mərkəzlərin gələn il əhatə dairəsinin daha da genişləndiriləcəyini bildirib: "Bu mərkəzlər sosial təminat sahəsində çox böyük dönüş yaradıbdır, innovasiyaların və müasir xidmətlərin göstərilməsi üçün çox gözəl alət olubdur. Şadam ki, DOST mərkəzlərinin yaradılması, artıq geniş vüsət alır və bu, il ərzində açılan ikinci mərkəzdir. Gələn il də Bakıda və rayonlarda bir neçə mərkəzin açılışı nəzərdə tutulur. Beləliklə, gələn il DOST mərkəzlərinin əhatə dairəsi genişlənəcək və əhalimizin yarıdan çox hissəsini əhatə edəcək".

Cənab İlham Əliyev vurğulayıb ki, DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də "ASAN xidmət" mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi "ASAN xidmət" öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaq".

130-dan çox xidmətin göstərilməsini digər önəmli bir məsələ kimi diqqətə çəkən Prezident buraya müraciət edən və edəcək bütün vətəndaşların bu xidmətdən razı qalacağına əminliyini bildirib: "Birinci mərkəzin açılışından sonra DOST mərkəzinə, cəmi 6 ay ərzində, 60 mindən çox müraciət olmuşdur və vətəndaşların məmnunluq əmsalı çox yüksəkdir. Bu, onu göstərir ki, həm bütün proses çox düzgün təşkil edilib və həm də, bu mərkəzlər, məhz innovativ əsaslarla fəaliyyət göstərir".

Prezident, həmçinin, son dövrlərdə sosial təminat sahəsində böyük işlər görüldüyünü vurğulayıb: "Bu il dövlət tərəfindən ən böyük sosial paket tətbiq olunub və bu, 4,2 milyon insanı əhatə edib. Bu, analoqu olmayan sosial təşəbbüsdür ki, həm maaşlar, həm pensiyalar, müavinətlər artırılıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıb. Biz bütün bu işləri vətəndaşların rifah halının yaxşılaşması üçün edirik. İqtisadi imkanlarımız artdıqca, bu işləri görməyə başlamışıq və bu işlər gələcəkdə daha geniş vüsət alacaqdır".

Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın, regionun aparıcı dövlətlərindən birinə çevrilməsi, ölkəmizin dünya miqyasında nüfuzunun artması, yüksək səviyyəli beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsi, şəhər və regionlarımızın simasının gözəlləşməsi, eləcə də, insanların maddi və mənəvi rifah halının yaxşılaşdırılmasında öz əksini tapıb.

Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas məqsədləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir. Bu istiqamətdə aparılan islahatlar, görülən işlər təqdirəlayiqdir və hər bir Azərbaycan vətəndaşı tərəfindən rəğbətlə qarşılanır. Çünki dövlətimiz vətəndaşının mənafeyinə xidmət edir.

**ZÜMRÜD BAYRAMOVA**

# Eyni ssenari, eyni şou...

## *Seçkiərəfəsi yaradılacaq növbəti “birliklər” də düşərgənin passiv vəziyyətdə qalacağını şərtləndirir*

***Müxalifət qarşıdakı parlament seçkilərinə “birliklər”lə gedəcəyini bəyan edir. Bu yerdə deyirlər, “utanmasan, oynamağa nə var ki”. Bir də, deyəndə ki, bu müxalifət “xəstədir”, deyirlər ki, böhtan atırsınız. Əgər belə olmasaydı, o zaman hər seçkiöncəsi yaratdığınız qurumların iflasa uğradığını görə-görə, yenidən bir də bu yolu getməyin nə faydası? Bir məsələ var ki, öz siyasi ömrünü çoxdan başa vuran dağıdıcı müxaliflər, hər seçki öncəsində olduğu kimi, bu dəfə də iflasa məhkum olduğunu qabaqcadan aydın gördükləri üçün qurumlarla gündəmdə qalmaq istəyirlər. O səbəbdən ki, ötən 26 il ərzində, müxalifətin çoxsaylı birlikləri, siyasi və ya seçki blokları ən müxtəlif adlarla mövcud fəaliyyət göstərmiş və son nəticəsi uğursuzluqla nəticələnib. Çünki onlar şəxsi təşəbbüslə, şəxsi maraqlar, yaxud birlik yaratmaq məqsədilə deyil, digərinin sosial bazasını ələ keçirmək üçün qurulan təşkilatlardır.***

### Aydın Mirzəzadə: “Dağıdıcı müxalifət növbəti dəfə gücsüzlüyünü nümayiş etdirəcək”



5-ci çağırış parlamentinin deputatı Aydın Mirzəzadə “Milli Şura”nın mitinqinə münasibət bildərərək deyib ki, siyasətçinin ən önəmli məcazlarından biri səhvlərdən nəticə çıxarmaq, həmin səhvləri təkrarlamamaq bacarığıdır: “Əgər siyasətçi səhvləri sıralayırsa, və ən pisi, onları təkrarlayırsa, bu, primitiv düşüncənin, hədsiz ambisiyaların və gerçəyi anlamamağın, şərtlərin diqtəsini başa düşməməyin, marazm həddinə yüksəlmiş ambisiyaları ilə natamamlıq kompleksinin göstəricisidir. Elə buna görə də, müxalifət həmin xarici qrantlara görə geriləməkdədir. Qaldı ki, mitinq keçirməyə, bu, onların hüququdur və “Milli Şura”nın da mitinq keçirməsi Azərbaycanda demokratiyanın olmasının göstəricisidir. Bir məsələ var ki, ancaq qanuna uyğun olmalıdır. İstər bu gün, istərsə də bu günə kimi keçirdikləri mitinqdə nə dəyişib? Eyni ssenari, eyni şou və eyni ümumi şüarlar. Bütün seçkilərdə olduğu kimi, qarşıdakı parlament seçkiləri ərəfəsi keçirmək istədikləri mitinqlərin də aqibəti əvvəlkilərdən fərqli olmayacaq, əksinə, dağıdıcı müxalifət növbəti dəfə öz gücsüzlüyünü nümayiş etdirəcək”.

### Sərdar Cəlaloğlu: “Bu günə kimi müxalifətin uğursuzluğunun səbəbi AXCP və Müsavat olub”



Müxalifətin 26 ildə uğursuzluğa düçar olmasınının səbəblərinə aydınlıq gətirən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu bildirib ki, 26 ildə müxalifətin məğlubiyyəti AXCP-Müsavatın adına yazılmalıdır: “Müxalifətin bu günə kimi genişlənməsi və güclənməsi istiqamətində hər hansı nailiyyət əldə edə bilməsini demək, gülünclük olardı. Xalq hər şeyi görür. Belə olsaydı, bu günə kimi özlərini “ana müxalifət” adlandırmaları ayıbdır, özü də çox ayıb. “Ana müxalifət” anlayışı bizə Türkiyədən gəlib. Türkiyədə parlamentdə çoxluq təşkil edən müxalifət partiyası ana müxalifət adlanır. Əgər bu prinsiplə yanaşsaq, AXCP-Müsavatı ana müxalifət hesab etmək olmaz. Ola bilər ki, özlərini böyük aparsınlar, amma “ana müxalifət” anlayışında yanılırlar. Bunun üçün gərək parlamentdə ən çox səsə malik müxalifət partiyası olsunlar. Əksinə, ilbəil geriləmələr müşahidə olunub. Ona görə də, AXCP-Müsavat “aparıcı” olmaq iddiasından imtina etməlidir. Çünki onların “aparıcılıq” iddiasında olmaları müxalifətə heç bir töhfə verməyib”.

S.Cəlaloğlu, bu müddət ərzində, AXCP və Müsavatın apardığı siyasətdə fərqli bir dəyişilmə olmadığını vurğulayıb: “Yəni 26 il bundan qabaq, necə münasibətlər var idisə, indi də həmin münasibətlər sərgilənir. Müxalifətdaxili münasibətlərin bugünkü duruma gəlməsində bu iki partiyanın günahı olduğunu etiraf edirəm”.

Həqiqətən də, bu, belə də olmalıdır, ay S.Cəlaloğlu! Çünki adı müxalifətin olan, əslində isə, ermənipərəst dairələrin ideyası əsasında yaradılmış “Milli Şura”nın antimilli maraqlara xidmət etməsi bəlli olsa da, bu günə kimi ölkəmizdə keçirilən və qarşıdakı parlament seçkiləri ərəfəsi, bu qurum yenə də həyasızlığından əl çəkməyərək, yanvar ayından mitinqlər keçirmək iddiasında olmaları, utanmadan oynayanlara bənzəyir. Ancaq bir şey də var ki, sirkə nə qədər tünd olsa, öz qabını çatladar. Çünki bu oyuncaq qurumun yaradılmasında əsas məqsəd, heç də özlərinin dedikləri kimi, demokratik seçkilərin keçirilməsi deyil. Bunu, müxalifət nümayəndələri də dəfələrlə təsdiqləyiblər ki, bu qondarma qurum qaranlıq məqsədlərə xidmət etmək üçün yaradılıb. Bu, o qurumdur ki, hələ seçkilərin keçirilməsinə 2 ay vaxt qalmasına baxmayaraq, seçkinin qeyri-demokratik keçiriləcəyi haqqında əsassız uydurmalar yayırlar və bu gün də bu çirkin niyyətlərindən əl çəkmirlər. Çünki artıq indidən uğursuzluqlarını görürlər. Bir də xarici ölkələrdəki anti-Azərbaycan dairələrin ideyası əsasında yaradılan xəyanatkar qurumların sonu, elə belə də olmalıdır.

Göründüyü kimi, düşərgə liderləri özləri də dağıdıcı müxalifətin mitinq “eyforiyası”na inanmırlar və məsləhət edirlər ki, mitinq-filan keçirməsələr, daha yaxşı olardı. Çünki nəticədə, cəmiyyət beləl变rindən iyrənir.

**Rəfiqə HÜSEYNOVA**

# “Erməni xalqının gələcəyi yoxdur”

***MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən görüşündə Prezident İlham Əliyev çox mütərəqqi, geniş dairədə Azərbaycanın milli və dövlətçilik maraqlarından çıxış etdi, həm də Ermənistanın işğalçılıq siyasətini bir daha ifşa etdi. Söhbət etdiyimiz müsahiblərimiz MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən görüşündə Prezident İlham Əliyevin çıxışının Azərbaycanın Ermənistan üzərində hərbi, siyasi və diplomatik qələbəsi olduğunu bildirdilər.***

### Millət vəkili Tahir Rzayev: “Ermənilər uçuruma doğru sürüklənir”



- Bütün beynəlxalq və regional nüfuzlu tədbirlərdə Prezident İlham Əliyev Ermənistanın təcavüzkar ölkə olduğunu bildirib və bunu faktlarla sübut edib. Xatırlayırsınızsa, bir qədər əvvəl, “Valday” Diskussiya Klubunun toplantısında və MDB dövlət başçılarının toplantısında Prezident İlham Əliyev qəti şəkildə N.Qaregina Ermənistanda abidə ucalmasını pislədi və bunun faşizmdən əziyyət çəkmiş xalqlara hörmətsizlik olduğunu bildirmişdir. Eləcə də, Prezident İlham Əliyev Ermənistanın bir çox məsələlərdə faşizm ideologiyasını təbliğ etdiyini aydın faktlarla açıb-göstərdi və bunun yolverilməz olduğunu bildirdi. Əlbəttə ki, faşizm insanlıq üçün bir tauna çevrilmişdir və faşizmi təbliğ etmək bu yola xidmət etmək deməkdir, bu yolla getməkdir. Erməni hakimiyyəti uzun illərdir ki, bu yolu tutub və insan qatilinə çevrilir. Cənab Prezident bu səfərlərində, bir daha xatırlatdı ki, Rusiya-Azərbaycan münasibətlərinin yaxşılaşdırılması hər iki ölkənin xeyrinədir. Çünki Rusiya bizimlə qonşudur. Sözsüz ki, Prezident İlham Əliyev erməni faşizm ideologiyasının tənqidi zamanı səsləndirdiyi fikirlər, ancaq Azərbaycan üçün deyil, bəşəri mahiyyət daşıyan fikirlərdir. Çünki bu gün dünyada müharibələr gedir, insanlar qırılır. Cənab Prezident də Rusiya səfəri zamanı dedi və bunu bir daha dünya xalqlarına və bəşəriyyətə çatdırdı ki, buna getmək olmaz. Ona görə də, Ermənistan bu yoldan çəkilməlidir, işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməlidir, sülh münasibətlərinə köklənməlidir, əgər Ermənistan bu münasibətləri həll etməsə, erməni xalqının gələcəyi yoxdur. Artıq ermənilər uçuruma doğru getməkdədirlər, çünki onların bütün əlaqələri kəsilib, artıq onlar dünyadan təcrid olunublar və bu vəziyyət xalqın və ölkənin məhvidir.

### Politoloq Qabil Hüseynli: “Prezident İlham Əliyev artıq neçənci dəfədir ki, MDB-nin müxtəlif yığıncaqlarında bu məsələni qaldırır”



- MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən görüşündə Prezident İlham Əliyevin mühüm əhəmiyyətə malik çıxış etməsi həddindən artıq vacib idi. Çünki MDB-nin prinsiplərinə görə, bu birliyə daxil olan ölkələr arasında xoş münasibətlər, iqtisadi əməkdaşlıq və bir-birlərinin daxili işlərinə qarışmamaq kimi məsələlər öz əksini tapıb. Əgər bu birliyə daxil olan ölkələrdən biri digərinə qarşı təcavüz edirsə və ərazisinin 20 faizini işğal edirsə, bu, həddindən artıq dözülməz bir haldır. Prezident İlham Əliyev artıq neçənci dəfədir ki, MDB-nin müxtəlif yığıncaqlarında bu məsələni qaldırır. Amma bu dəfə xüsusi kəskinliklə həmin məsələnin qaldırılması Ermənistanın bu qurum daxilindəki mövcudluğunu bir sıra dövlətlər üçün dözülməz edir. Bir sıra dövlətlər Ermənistanın Azərbaycana qarşı təcavüzündən təngə gəliblər və münaqişənin tezliklə həll olunmasını istəyirlər. Prezident İlham Əliyevin konkret faktlarla, əsaslandırılmış bir formada, yüksək məntiqlə bu təcavüz olaylarının yaratdığı ağır nəticələri, insanlara gətirdiyi bədbəxtlikləri qeyd etməsi həyasız erməniləri çox pis vəziyyətdə qoyub. Ermənistana qəyyumluq edən dövlətlər də, başa düşməlidirlər ki, Azərbaycan heç kəsin torpağına göz dikməyib və öz torpaqlarının işğalı ilə heç zaman barışmayacaq. Azərbaycan haqlı olaraq, yalnız öz ərazi bütövlüyünü təmin etmək uğrunda mübarizə aparır və buna da nail olacağı şübhəsizdir.

**GÜLYANƏ**

# Əli Kərimli anladımı?

*AXCP sədrinin kənarda qalması tərəfdarlarının ona qarşı ittihamlarını artırır*

**Parlament seçkiləri ərəfəsində AXCP sədri Əli Kərimlinin, guya ki, "boykot" qərarı verməklə, müxalifətə dırnaqarası örnək olacağı xəyalına dalması onun utopik düşüncəsini alt-üst edib. Ə.Kərimli, heç bir halda, öz dar düşüncəsini, bütövlükdə, müxalifətə sirayət etdirə bilmədi. İlk öncə, onun sözügedən qərarı seçkilərdə iştirak edəcək müxalif düşüncəli şəxsləri kifayət qədər güldürdü və istehzalar yaratdı.**



### Əli Kərimli hansı səhvə, məhvolma vəziyyətinə düçar olduğunu anlayır, amma gecdir...

İndi isə, AXCP sədri, məhz tərəfdarlarının ittihamlarına məruz qalır. Xüsusilə, seçkilərdə iştirak etməmək məsələsini əllərində əsas tutan partiya üzvləri Kərimlini, partiyanı dağıtmaqda və partiyadaşlara xəyanətdə suçlayırlar. Bütün bunlar isə, təsdiq edir ki, çox qısa müddət ərzində, ya Ə.Kərimli partiyadan zor gücü ilə, hətta qiyam edilməklə olsa belə, qovulacaq, ya da AXCP siyasi təşkilat olaraq, birdəfəlik siyasi arenadan getməli olacaq. Beləliklə, bəlkə də Ə.Kərimli hansı səhvə və məhvolma vəziyyətinə düçar olduğunu anlayır, amma gecdir...

### Əli Kərimli siyasi müxalifət düşərgəsində Müsavat, "REAL", "Ümid", VHP, VBP, "VİP", AXP, KXCP və s. partiyalardan da kəskin kötək yeyib

Başqa tərəfdən, AXCP-dən sızan bir sıra mənbə xəbərlərinə görə, artıq bu partiyanın üzvü olmalarına rəğmən, istefa verib, seçkilərdə iştirak etmək istəyənlər də var. Əgər bu, həqiqətən də, belədirsə, deməli, Ə.Kərimli yalnız özünə balta çalmaqla qalmır, həmin baltaları elə tərəfdarları olmuş şəxslər də ona doğru yönəldirlər. Halbuki Ə.Kərimli siyasi müxalifət düşərgəsində Müsavat, "REAL", "Ümid", VHP, VBP, "VİP", AXP, KXCP və s. partiyalardan da kəskin kötək yeyib. Görünür, bu kötəklərdən ayılmamış, indi də öz tərəfdarlarının kötəklərini, yaxud balta zərbələrini mütləq şəkildə yeməli olacaq AXCP sədri açıq-aydın şəkildə dalana dirəndiyinin fərqinə varmağa başlayıb. Ümumiyyətlə isə, xalq parlament seçkilərinə qatılır və bu seçkilər ölkənin demokratik mühitinə yeni ab-hava qatmaq üzrədir. Ə.Kərimli isə, partiyadan qiyam yolu ilə qovulsa belə, yaddaşlarda dağıdıcı, ucuz və rüsvayçı sədr olaraq qalacaq. Bax, bunu isə, o, sözün əsl mənasında, haqq edir.

***Rövşən NURƏDDİNOĞLU***

# PKK terroruna qarşı etiraz aksiyası keçirən analardan daha biri övladına qovuşub



***HDP Diyarbəkir təşkilatının binası qarşısında etiraz aksiyası keçirən analardan daha biri övladına qovuşub. SİA-nın verdiyi xəbərə görə, HDP Diyarbakır təşkilatının binası qarşısında etiraz aksiyası keçirən analardan biri olan Hüsniyyə Kaya övladına qovuşub.***

Övladı üçün etiraz aksiyası keçirən Hüsniyyə Kaya qızının təslim olduğunu Türkiyənin Daxili İşlər Naziri Süleyman Soyludan öyrənib. 5 il əvvəl 14 yaşındaykən PKK terror təşkilatı tərəfindən qaçırılaraq Suriyaya aparılan Mekiye Kaya, 21 dekabr tarixində PKK-dan qaçaraq Ərbildə yerləşən İraq Kürd Regional Muxtariyyətinə tabe olan təhlükəsizlik qüvvələrinə təslim olub. Mekiye Kaya aparılan danışıqlardan sonra Şırnak əyalətinin Silopi şəhərinə gətirilib. Ailəyə müjdəli xəbəri Türkiyənin Daxili İşlər Naziri Süleyman Soylu verdi. Türkiyənin Daxili İşlər Naziri Süleyman Soylu, Mekiyenin anası Hüsniyyə Kaya ilə əlaqə saxlayaraq qızının Türkiyəyə gətirildiyini və gündüz saatlarında ailəsinə təhvil veriləcəyini söyləyib.

Daxili İşlər Nazir Süleyman Soylunun verdiyi müjdəli xəbəri eşidən Hüsniyyə Kaya ana, "5 ildir nə gecəmiz var nə də gündüzümüz. Allah dövlətimizdən razı olsun. Prezidentimiz Rəcəb Tayyib Ərdoğana, Daxili İşlər Nazirimiz Süleyman Soyluya və əməyi keçən hər kəsə təşəkkür edirəm. Evimizdə bayram havası var, qızımı görmək istəyirəm. Dövlətimiz güclüdür, Allah razı olsun." - deyə bildirib. HDP Diyarbəkir təşkilatının binası qarşısında 3 sentyabr tarixindən başlayan və hələ də davam edən etiraz aksiyasının 117-ci günündə daha bir ailə övladına qovuşub.



## Ünvansız yolun yolçuları...

RƏFİQƏ

***Yenə seçkilər başlayan kimi, dağıdıcı düşərgənin boş başlıları ya mitinq-piket keçirməyə, ya da əndrəbadi bloklar yaratmağa girişdilər. Sonda isə nəticə nə olur? Əlbəttə, biabırçılıq! Oturub fikirləşirsən ki, bu qədər də həyasızlıq olar? Abırı olan gedib qıçını sındırar oturar oturduğu yerdə. Müxalifətin 26 illik uğursuz yollarını yadıma salanda, özözümə deyirəm ki, indiyə qədər abır-həya, yaxud da düşünənə "baş" olub ki, düz yola qayıtsınlar.***

Özü padoj buna deyirlər. Qınamayın məni, təhqir etmirəm. Sözümün canı var. Belə ki, bəlli olan reallıq budur ki, bu, o Azərbaycan müxalifətidir ki, yarandığı gündən etibarən mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Ona rəqib və alternativ ola bilməyib. Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı və rüsvayçı məğlubiyyətlərin də səbəbi, məhz budur. Durum dünən də dəyişməyib, bu gün də, sabah da dəyişməyəcək. Və dağıdıcı müxalifətin eyniadlı estafeti bu gün də davam etməkdədir. Özü də ünvansız bir yol boyunca - "SİD-SUH"-dan tutmuş, ta üzü "Milli Şura"ya qədər. Səbəb yalnız budur! Ən əsas səbəb isə, həmin qurumları yaradanlar təmsil olduqları partiyada olanların sayına uyğun qoyurlar. Bu yerdə, yaxşı olar ki, adlarındakı hərf sayı üzvlərinin sayından daha çox olan partiyalar, daha yaxşı olar ki, yarı yoldan qayıdıb varsa, abırlarına qısılsınlar, heç olmasa 2020-ci ilə qara ləkə ilə daxil olmasınlar. Ancaq AXCP-Müsavatın ətrafında olanlar "böyük və ağır" abilərinin üzünə necə ağ olsunlar.

Başqa bir səbəb isə, qarşıda hələ Ə.Kərimlinin C.Həsənli başda olmaqla, "Milli Şura" ilə uzun müddətdən bəri çəkilməmiş qalan haqq-hesabı var...Əli Kərimli isə "Milli Şura"nı əlində alət edib cibini güdməklə, pulunu qazanmaqla məşğuldur. Yəni bunların yönümləri tam fərqli olsa da, bənzərlikləri də mövcuddur. Daha bir səbəb isə hər ikisinin bir-birinə, uzun illərdən bəri, patoloji nifrət bəsləməsidir. Ona görə də, məqsəd və amal hər nə olursa-olsun, məqamı gələndə, fürsət düşəndə, öz zəhərlərini tökəcəklər, nifrətlərini büruzə verəcəklər. Ancaq 26 illik məğlubiyyət immuniteti olan bu bədbəxtlər bu uğursuz yolla istəklərinə çata biləcəklərmi? Bax, bunu zaman göstərəcək.

# "Müxalifətin çirkin istəkləri baş tutmayacaq"

"Aksiyalar keçirmək üçün dövlətə müraciət etmək lazımdır". Bunu SİA-ya açıqlamasında "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz deyib.



Onun sözlərinə görə, konkret olaraq Bakı Şəhəri İcra Hakimiyyətinə müraciət olunmalıdır: "Əgər icazə verilərsə bundan sonra aksiyaları keçirilə bilərlər. Bu, məsələnin hüquqi, qanuni tərəfidir. Digər tərəfdən isə mənəvi, sosial, siyasi tərəfidir ki, əgər hansısa hədə yolu ilə aksiya keçirmək istəyirsə, bu, özbaşnalıq və dövlətə qarşı çıxışlar etmək deməkdir. Təbii ki, bunun da qarşısını dövlət alacaqdır. Parlament seçkilərinə start veriləndən sonra hər kəsin özü üçün qazandan bir pay əldə etmək istəyi həm də xaricdən ola bilər. Bu cür aksiyaları keçirmələrinin qarşılığında xaricdən maliyyə alması ilə bağlıdır. Yəni xarici qüvvələr çox pul ayırmaqla müxaliflərdə bir o qədər icazəli və ya icazəsiz aksiyalar keçirməyə cəhdlər göstərəcək. Bir sözlə, onların bu cür hərəkətlərə əl atması boş şeylərdi. Müxaliflər çirkli pulları bu gün almayıblar, dünən almayıblar, yəni uzun illərdi ki, özlərinin maddi şəraitlərini xaricdən maliyyələşən donorlar vasitəsi ilə həyata keçirirlər. Ümumiyyətlə, onların nə deməsindən və nə etməsindən asılı olmayaraq, müxalifətin çirkin istəkləri baş tutmayacaq".

***Gülyana***

# Azərbaycan gəncləri vətəndaş cəmiyyətinin aparıcı qüvvəsidir

***Ulu Öndər Heydər Əliyev deyirdi: “Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və Vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər”.***

Gənclik cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda, daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Yaxın tarixi keçmişimizdə - Sovet dönəmində bu quruluşa xas stereotiplərə görə cəmiyyətdə mövqe sahibi olmaq, dövlət strukturlarında çalışmaq üçün bəlli bir yaş həddini keçməli idin. Belə bir quruluşda gəncliyin inkişafından və cəmiyyətdəki rolundan danışmağa dəyməzdi. Lakin Azərbaycan tarixi müstəqilliyini bərpa etdikdən, xüsusən də, xalqın təkidli tələbi ilə Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi və əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlara başlandı.

1996-cı il fevralın əvvəllərində Azərbaycan gənclərinin ilk forumu keçirildi və bununla da, gəncliyin inkişafına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Ulu Öndərin 1997-ci ildə imzaladığı Fərmanla fevralın 2-si ölkədə Gənclər Günü kimi təsbit olundu.

Heydər Əliyev I Forumdan sonra gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq, 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan edib. Tarixdə böyük şəxsiyyətlərin əksəriyyəti gəncliyə xitab edib. II Forumda gənclərə müraciət edən Ümummilli Liderimiz deyib: “Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq və inkişaf etdirmək üçün hazır olun!”

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

- Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;

- Gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;

- Gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;

- Gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;

- Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. Dövlətimizin başçısının ardıcıl səyləri nəticəsində, Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Azərbaycanın müxtəlif bölgələrində olimpiya idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

Son illər Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev bu meyarları nəzərə alaraq, ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir və ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir.

Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da “Azərbaycan Gəncliyi Dövlət Proqramı”nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. Həmin Sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək, gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli və daim təşəbbüskarlıq göstərməlidir.

“2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı” gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində, gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib.

Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında və beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Hər zaman adlarını fəxrlə çəkdiyimiz Mübariz, Fərid, Murad, Samid, Ruhin və Elnur, aprel döyüşlərinin onlarla qəhrəmanı bu gün Azərbaycanımızda yüzlərlə, minlərlədir.

2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bir sözlə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətinin gənclik mövzusunun aktuallığı bir daha aydın təsbit olunur.

Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində, bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Dövlət-gənclər siyasəti - gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə, dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Dövlət-gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq, hökumət qurumları tərəfindən həyata keçirilir.Gənclər siyasətinin əsas istiqamətləri “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu” ilə aşağıdakı kimi müəyyənləşdirilib:

Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı

1. İstedadlı gənclərə dövlət qayğısı;

2. Gənclərin sağlamlığının qorunması və fizik inkişafı;

3. Gənclərin məşğulluğunun təmin edilməsi;

4. Gənc ailələrə dövlət yardımı;

5. Gənclər təşkilatlarına dövlət yardımı.

Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə tədbirlər görülür. Bu gün Cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf, təbii ki, gənclər üçün yeni imkanlar açır. Dövlətimizin siyasətində gənclər məsələləri mühüm yer tutur. Yeni Azərbaycanın maliyyə-iqtisadi imkanları artdıqca, bütün sahələrin inkişafına kapital qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və gəncliyin inkişafı, yüksək intellektli və vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən və onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati- hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək edib. Bu gün ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Cənab Prezident tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə, geniş spektrlıdır. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində, bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur və çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir. Bu gün inkişaf edən, bütün istiqamətlərdə, davamlı olaraq gücünü artıran dövlətimizin qarşısında dayanan hədəflər hər bir vətəndaş üçün çox önəmlidir. Çünki Prezident İlham Əliyevin apardığı uğurlu siyasət birbaşa vətəndaşın sosial rifahına yönəlib. Bu mənada, öz ətrafında yüz minlərlə vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyası da vətəndaşlarımızın ideya-siyasi tərbiyəsi ilə bağlı öz işlərini ən müasir səviyyədə qurur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının 700 minə yaxın üzvü var.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Qurbanov Qəzənfər Elnur oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix-coğrafiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Eyyubova Zafta Şirin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Muradzadə Gülnarə Nizami qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət ixtisası üzrə IV kurs tələbəsi Qəhrəmanova Fatimə Natiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim ixtisası üzrə II kurs tələbəsi Allahverdiyeva Aydan Sərdar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət ixtisası üzrə III kurs tələbəsi Qocayev Taleh Rahim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Əliyeva Aytən Əfsər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

ADPU-nun ibtidai təhsil fakültəsinin I kurs tələbəsi Sultanova İnci Azad qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.


# Səs

Son səhifə 28 dekabr


# BSU-da "Həmid Araslı-110" adlı tədbir keçirilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 fevral 2019-cu il tarixli Sərəncamına əsasən, görkəmli ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Həmid Araslının anadan olmasının 110 illiyi ilə əlaqədar olaraq, respublikamızda müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub.***



Bakı Slavyan Universitetində Azərbaycan filologiyası fakültəsinin Azərbaycan ədəbiyyatı kafedrasının və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq və Ədəbiyyat nəzəriyyəsi şöbələrinin təşkilatçılığı ilə "Həmid Araslı-110" adlı tədbir keçirilib. Tədbirdə professor Tahirə Məmməd, professor Nizami Məmmədov, dosent Təhminə Bədəlova Həmid Araslının çoxcəhətli elmi yaradıcılığı, məhsuldar pedaqoji fəaliyyəti, eyni zamanda, ölkənin mədəni-ictimai həyatında yaxından iştirakı barədə məruzələrlə çıxış ediblər. Çıxışlarda bildirilib ki, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı sahəsində xüsusi mövqeyə malik nüfuzlu mütəxəssis və alim kimi geniş şöhrət qazanan akademik Həmid Araslı, çoxsaylı araşdırmaları ilə respublikada ədəbiyyatşünaslığın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan ədəbiyyatı tarixinin sistemləşdirilməsi və dolğun mənzərəsinin yaradılması, onun mühüm elmi nailiyyətlərindəndir.

Sonra çıxış edən Həmid Araslının qızı, AMEA-nın müxbir üzvü, professor Nüşabə Araslı tədbirin təşkilinə görə, BSU-nun rəhbərliyinə və iştirakçılara dərin minnətdarlığını bildirib və onlara elmi-pedaqoji fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirin sonunda tələbələrin çoxsaylı sualları cavablandırılıb və xatirə şəkli çəkdirilib.

**ZÜMRÜD BAYRAMOVA**

## Moskvada Stalinə aid olduğu ehtimal edilən avtomobil oğurlanıb



Rusiyanın paytaxtında İosif Stalinə aid olduğu ehtimal edilən ZİS avtomobili oğurlanıb. Rusiya mətbuatının yazdığına görə, naməlum şəxslər gecə saatlarında Moskva şəhərinin Novosxodnensk şosesində qarajda saxlanılan avtomobili oğurlayaraq naməlum istiqamətə qaçırıb. Hazırda cinayətkarların axtarışı və saxlanılması istiqamətində tədbirlər görülür. KİV-lərin məlumatına görə, raritet avtomobilin təxmini qiyməti 2,5 milyon avro dəyərində qiymətləndirilir.

# Siyəzəndə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş elmi-praktik seminar keçirilib

Dünən Siyəzən rayon Heydər Əliyev Mərkəzində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Dahi Şəxsiyyət, müstəqilliyimizin Qurucusu Ümummilli Lider Heydər Əliyev haqqında elmi-praktik seminar keçirilib. Seminarda Siyəzən rayon təhsil, mədəniyyət, gənclər və idman idarəsinin işçiləri iştirak ediblər. Tədbir iştirakçıları, ilk öncə, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini, siyasi irsini əks etdirən fotostendlərlə tanış olublar.



Tədbiri Siyəzən rayon Heydər Əliyev Mərkəzinin direktoru İxtiyar İsayev açaraq bildirib ki, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsisçisi müstəqil Azərbaycan Respublikasının Memarı və Qurucusu, xalqımızın xoşbəxt gələcəyinin banisi Ümummilli Lider Heydər Əliyev olmuşdur. Dünya azərbaycanlıları ilə əlaqələrin genişləndirilməsi üçün Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il dekabr ayının 16-da hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd edilməsi haqqında qərar verdi və onun rəsmiləşdirilməsi haqqında Azərbaycan Respublikasının Ali Sovetinə qanunvericilik təşəbbüsü ilə müraciət göndərdi. İ.İsayev bildirib ki, bütün bu nailiyyətlərin əsasında Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı siyasi kurs dayanır: "Möhtərəm Prezidentimiz İlham Əliyev Ümummilli Liderimizin müdrik siyasi kursunu layiqincə davam etdirərək, Azərbaycanın dünyanın yüksək inkişaf etmiş ölkələri sırasına çıxması naminə fədakarlıq nümunələri göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməli Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan milli həmrəylik ideyalarının bu gün də Azərbaycan dövləti üçün öz aktuallığını saxladığını nümayiş etdirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun Xoşməramlı Səfiri Mehriban Əliyevanın dövlətimizin milli maraqlarına və xalqın mənafeyinə xidmət edən çoxşaxəli fəaliyyəti, xüsusilə, qeyd edilməlidir".

Dəyirmi masada çıxış edən Siyəzən şəhər 5 saylı orta məktəbin direktor müavini Xatirə Həsənova, Siyəzən şəhər 2 saylı orta məktəbin müəllimi Kəmalə Əmirova və Siyəzən rayon Heydər Əliyev Mərkəzinin ekskursiyaçısı Aygün İsayeva qeyd ediblər ki, Azərbaycan bütün dünyada yaşayan azərbaycanlıların tarixi vətənidir. Diaspor təşkilatlarımızın səyləri nəticəsində, Azərbaycan həqiqətləri bütün dünyaya olduğu kimi çatdırılır.

Seminarın sonunda Dahi Şəxsiyyət, müstəqilliyimizin Qurucusu Ümummilli Lider Heydər Əliyev haqqında film nümayiş olunub.

***Nəzakət BAYRAMOVA***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**